12 NOYABR KONSTİTUSİYA GÜNÜDÜR!

Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

12 noyabr 2026-cı il №42 (9195) www.muallim.edu.az muallim@media.edu.az

Prezident İlham Əliyev

"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq"

Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır

Bir daha demək istəyirəm ki, əziz qardaşım, hörmətli Prezidentin sıx qrafikinə baxmayaraq, bu Zəfər Günündə burada, Qarabağda olması bütün dünyaya bizim birliyimizi bir daha göstərir. Əminəm ki, bu birlik əbədi olacaq. Bilirəm ki, heç kimdə - nə Türkiyədə, nə Azərbaycanda bununla bağlı şübhə yoxdur. Biz keçmişdə də bir yerdə olmuşuq, müharibə dövründə də bir yerdə idik, bu gün də bir yerdəyik və gələcəkdə də bir yerdə olacağıq. Hesab edirəm ki, bu tarixi səfərin əsas nəticəsi məhz budur.


Təbii ki, ikitərəfli əlaqələr haqqında danışarkən bir çox məsələlər haqqında danışa bilərik. Bütün bu məsələlər bəllidir, siyasi, iqtisadi əlaqələr, sərmayə qoyuluşu, enerji, nəqliyyat dəhlizləri, Zəngəzur dəhlizi - bütün bunlar bu gün geniş müzakirə olundu. Amma hesab edirəm ki, səfərin əsas nəticəsi məhz dediyim kimidir: "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır"



Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada mətbuata bəyanatlarla çıxış ediblər

Qarabağda yenidən yanan hər ocaq, yüksələn hər bina və bərpa olunan tarixi miras Azərbaycan xalqının gələcəyə inamını göstərir. İnşallah, bu yolda təcrübəmizi bölüşməyə, yenidənqurma və bərpa fəaliyyətlərinə töhfə verməyə davam edəcəyik. Ən son Cəbrayılda "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi" və "Ağıllı Tingçilik" Müəssisəsini yaratmağın qürurunu yaşadıq. Kənd təsərrüfatı və Meşəçilik Nazirliyimizin töhfələri ilə qurulan bu müəssisə Türkiyə-Azərbaycan əməkdaşlığının yeni bir göstəricisi olmuşdur. Bundan başqa, Ağdamda sahəsi 14 min 500 kvadratmetr olan qırx otaqlı məktəbimizin inşasına da başlandı. İnşallah, gələn il İlham qardaşımla birlikdə açılışını edəcəyik... Türkiyə və türk milləti olaraq hər zaman yanınızda olmaqda, kədərinizi kədərimiz, sevincinizi sevincimiz bilməkdə, inşallah, davam edəcəyik"

"BÖYÜK QAYIDIŞ" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ MÜASİR TƏHSİL İNFRASTRUKTURU YARADILIR



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak ediblər

Azərbaycan Prezidentinin 2022-ci ildə imzaladığı müvafiq Sərəncama əsasən, Zəngilan şəhərində 960 şagird yerlik tam orta ümumtəhsil məktəb binasının layihələndirilməsi və tikintisinə başlanılıb. 2025-ci ildə layihədə konseptual dəyişiklik edilərək, təhsil müəssisəsi Zəngilan Şəhər Təhsil Kompleksi olaraq peşəyönümlü tədris müəssisəsi kimi yenidən layihələndirilib.

Bax səh.4

Prezident İlham Əliyev Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib



Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, nazirliyin sifarişi ilə Şuşa Dövlət Peşə Təhsil Mərkəzində əsaslı təmir işlərinə 2025-ci ilin mart ayında başlanılıb. İkimərtəbəli, 360 yerlik tədris binasında 9 emalatxana, 3 təlimat sahəsi, musiqi alətlərinin hazırlanması və bərpası emalatxanası, 5 tədris otağı, rəsm otağı, fizika və kimya laboratoriyaları, laborant, informatika və hərbi təlim otaqları, həmçinin yeməkxana var.

Bax səh.4

Şuşaya ilk Azərbaycan bayrağını sancan Vətən Müharibəsi Qəhrəmanı
Bax səh.3

"Tarixi yaşatmaq üçün onu gələcək nəsillərə ötürmək lazımdır"
Bax səh.6

Zəfərdən Qayıdışa: Qarabağda milli təhsil quruculuğu
Bax səh.8

Süni intellekt yeni peşələr yaradır
Bax səh.10

AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ BİZİM BÜTÜN UĞURLARIMIZIN TƏMƏLİNDƏ DAYANAN FƏLSƏFƏDİR

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə Xankəndi şəhərində Zəfər abidəsini ziyarət edərək önünə əklil qoydu.
AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib.



Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

Prezident İlham Əliyevin təbriki

– Mən əziz xalqımı Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm.

Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərimizin ruhu şad olsun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, hərbçilərimizin qəhrəmanlığı nəticəsində biz erməni işğalına son qoya bildik. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində qəhrəmanlıq, rəşadət, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Düşmənin beli döyüş meydanında qırıldı. 44 günlük Vətən müharibəsində 300-dən çox şəhər və kənd döyüş meydanında düşməndən azad edildi. O yaşayış məntəqələrində Azərbaycan Bayrağı qaldırıldı və bunun nəticəsində noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, o vaxt döyüş meydanında hələ azad olunmamış ərazilər də Azərbaycana qaytarıldı, bir güllə atılmadan, bir şəhid vermədən.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq.

Vətən müharibəsində Azərbaycan xalqı öz mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Ermənistan işğal edilmiş ərazilərdə bir neçə istehkam qurmuşdur. Bəzi yerlərdə 6-7 müdafiə xətti qurulmuşdu. Bütün yerlər minalanmışdır. Tikanlı məftil, istehkamlar, əlverişli mövqelər, təpələr, dağlar – bütün bunlar bizim üçün böyük çətinliklər yaradırdı. Ermənistan tərəfi əmin idi ki, Azərbaycan öz torpaqlarını hərbi yolla azad edə bilməyəcək, yaxud da ki, kimsə bizə bu icazəni verməyəcək. Onlar səhv etdilər və Azərbaycan xalqı bir daha bütün dünyaya nə qədər böyük xalq olduğunu göstərdi. Bizim əsgər və zabitlərimiz müdafiə xətlərini yarmaq üçün sinələrini qabağa verib şəhid olmuşlar, yaralanmışlar, şəhadət zirvəsinə ucalmışlar. Yəni bizi irəliyə aparan milli ruhumuz idi.

Təbii ki, uzun illər ərzində ordu quruculuğu, Silahlı Qüvvələrimizin peşəkarlığının artırılması, müntəzəm olaraq hərbi təlimlərin keçirilməsi, döyüş qabiliyyətinin artırılması, ordumuzun müasir texnika ilə, silahlarla təchiz edilməsi amilləri Qələbəmizin qazanılmasında böyük rol oynamışdır. Amma Qələbəyə aparan əsas yol xalqımızın, əsgər və zabitlərimizin ürəyindən keçirdi. Bizi irəliyə aparan yol ləyaqət yolu idi. Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Mən işğal dövründə dəfələrlə müxtəlif tədbirlərdə açıq bəyan edirdim ki, Azərbaycan işğalla barışmayacaq. Baxmayaraq ki, Ermənistanın arxasında dayanan ölkələr bizi bu işğalla barışdırmaq istəyirdilər. Dəfələrlə bildirirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Dəfələrlə bizi qəbuledilməz güzəştlərə sövq etmək üçün müxtəlif fitnələr törədirdilər. Azərbaycana qarşı aparılan genişmiqyaslı qarayaxma, şər-böhtan kampaniyası, Azərbaycan dövlətini, xalqını və rəhbərliyini gözdən salmaq üçün qurulan bütün təxribatlar heç bir nəticə vermədi. Mən dəfələrlə bildirirdim ki, biz heç vaxt işğalla barışmayacağıq, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz hərbi yolla ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Əfsuslar olsun ki, mənim sözlərimi eşitmədilər və nəticə etibarilə xalqımız bir yumruq kimi birləşərək döyüş meydanında düşmənin belini qırdı, tarixi ədaləti, ləyaqətimizi və beynəlxalq hüququ bərpa etdi.

Ermənistan tərəfi o qədər azğınlaşmışdı ki, hətta bizi daim hədələyirdi. Yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi, “Qarabağ Ermənistandır və nöqtə” sözləri ilə bizim ləyaqətimizi alçaltmağa çalışırdı. Biz isə buna döyüş meydanında cavab verdik və döyüş meydanında kimin kim olduğunu hər kəs əyani şəkildə gördü. Bir nəfər belə olsun Azərbaycan Ordusundan qaçan, fərarilik edən olmayıb. Halbuki Ermənistan rəhbərliyinin etirafına görə, Ermənistan ordusunda 12 minə yaxın fərari olmuşdur. Bax, fərq bundan ibarətdir. Azərbaycan döyüş meydanında tam üstünlüyü təmin edərək 8 noyabr günündə – Zəfər bayramını qeyd etdiyimiz gündə Şuşanın azad edilməsi faktiki olaraq İkinci Qarabağ müharibəsinin taleyini həll etdi. Ondan bir gün sonra – noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atdı.

O vaxt Ermənistan rəhbərliyinin yersiz açıqlamalarına biz də açıqlamalar vermişdik. Mən bildirmişdim ki, “Qarabağ Azərbaycandır və nida”. O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada – Xankəndidə qoyduq. Birgünlük antiterror əməliyyatı Ermənistanın işğalçı ordusunun 15 minlik işğalçı korpusunu tamamilə iflic vəziyyətə salmışdır, çox dəqiq və peşəkarcasına aparılmış hərbi əməliyyat nəticəsində Ermənistan məcburən ikinci dəfə təslim olmuşdur.

Bu gün biz azad Qarabağda qurub-yaradırıq. Bu gün biz – bu torpaqların sahibləri bütün dünyaya göstəririk ki, bura bizim torpağımızdır. Çünki biz qurub-yaradan xalqıq. İşğal dövründə Ermənistan ancaq bizim təbii sərvətlərimizi talayırdı, meşələrimizi qırırdı, mədənlərimizi qanunsuz olaraq istismar edirdi. Biz isə şəhərləri sıfırdan qururuq.

İşğal dövründə bizim bütün şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir. Bu, misli görülməmiş barbarlıqdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz Ermənistan tərəfindən dağıdıldı və təhqir olundu. İndi genişmiqyaslı quruculuq işləri gedir, “Böyük Qayıdış” Proqramı icra edilir. Artıq 97 min insan azad edilmiş ərazilərdə yaşayır, təhsil alır, çalışır və hər ay biz keçmiş köçkünlərin öz doğma torpaqlarına qayıtmasının şahidləriyik.

> **“Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir. Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir. Azərbaycanda bütün etnik qruplar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bizi birləşdirən vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Bu, bizim milli ideyamızdır”**

Bu təbrik sözlərimi mən Xankəndidə, Zəfər tağının önündə deyirəm. Bu, bizim şanlı Zəfərimizin şərəfinə ucaldılmış ikinci zəfər tağıdır. Birincisi Bakıda, ikincisi isə burada, Xankəndidədir. Bakıda Zəfər tağının yanında Zəfər Muzeyi də fəaliyyət göstərir. Hər bir şəhidimizin adı muzeydə həkk olunub. Xankəndidə də Zəfər Muzeyi olacaq. Artıq Zəfər Muzeyinin yaradılması ilə bağlı son tamamlama işləri aparılır. Onun məkanı keçmiş icra hakimiyyətinin binasıdır, hansı ki, vaxtilə Azərbaycana qarşı təcavüzün, işğalçılıq siyasətinin beşiyi idi. O, bir şeytan yuvası idi. O binaya mən şanlı Zəfərimizdən sonra – 2023-cü ilin oktyabrında gələndə, ilk növbədə, binanın pəncərələrini açdım ki, o şeytan ruhu oradan çəkilsin. İndi həmin o binada Zəfər Muzeyi yerləşəcək. O binada oturanlar – hərbi cinayətkarlar öz layiqli cəzalarını alıblar. Onlar Bakıya tanklarla gəlmək istəyirdilər, Bakıda çay içmək istəyirdilər. Təkəbbürlü bəyanatlar verirdilər, çünki sığınmışdılar bəzilərinin qucağına və hesab edirdilər ki, əbədi işğalçılıq siyasətini aparacaqlar. Biz isə onlara göstərdik kim kimdir. Biz Azərbaycan xalqının ləyaqətini, mətanətini, iradəsini göstərdik və bu gün onlar Azərbaycan həbsxanalarında çay içirlər, öz layiqli cəzalarını alıblar.

Bu Zəfər tağına gedən pilləkənin hər pilləsində Vətən müharibəsinin hər bir günü həkk olunub. Bu pilləkənlə qalxan hər bir insan haqlı olaraq qürur hissi keçirir, 44 günlük şanlı yürüşümüzün tarixini bir daha yaşayır. Bütün bu məsələlər təbiidir. Amma onu da bildirməliyəm ki, bu pilləkəndə, eyni zamanda, şəhidlərimizin qanı da həkk olunub. Çünki biz hər gün şəhidlər verirdik, hər gün qan tökülürdü. Buna baxmayaraq, xalqımız əsl vətənpərvərlik və həmrəylik göstərirdi və xalqdan gələn dəstək mənə Ali Baş Komandan kimi əlavə güc verirdi. Ancaq irəli getdik və bir gün də dayanmadıq, bir gün də geri addım atmadıq, düşməni torpaqlarımızdan qovduq, haqq-ədaləti bərpa etdik, bu gün ərazimiz azaddır və bütövdür.

Bizi irəliyə aparan bizim milli-mənəvi dəyərlərimizdir. Azərbaycan dövləti bu təməl üzərində qurulub. Milli-mənəvi dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Əsrlər boyu biz bu dəyərləri qəlbimizdə yaşatmışıq, qorumuşuq və gələcək nəsillərə əmanət kimi verəcəyik.

Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir. Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir. Azərbaycanda bütün etnik qruplar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bizi birləşdirən vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Bu, bizim milli ideyamızdır. Bir daha demək istəyirəm ki, bu, gələcəyə aparan yoldur. Bu gün Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xoş ovqat, quruculuq meyilləri və cəmiyyətimizin vahid amal uğrunda birləşməsi, hesab edirəm ki, bugünkü dünyada az-az rast gəlinən mənzərədir.

Mən bu gözəl bayram günündə bir daha Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu qeyd etmək istəyirəm. Çünki ancaq böyük xalq əzab-əziyyətlərə baxmayaraq, 30 illik işğala baxmayaraq, – baxmayaraq ki, Ermənistanın arxasında dayanan böyük dövlətlər bizi hədələyirdi, – iradə göstərdi və mənə dəstək verərək Qələbəmizi şərtləndirdi.

Bu gözəl bayramı qeyd edərkən hər birimiz haqlı olaraq qürur hissi keçiririk. Eyni zamanda, hər birimiz bu yolda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edirik. Əminəm, hər birimiz özümüzə deyirik: Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin! Əminəm ki, belə də olacaq. Bu gün Azərbaycan güclü dövlətdir, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərindən heç kimdən asılı olmayan dövlətdir, müstəqil siyasət aparan dövlətdir və ləyaqətli dövlətdir.

Azərbaycan xalqına eşq olsun! Silahlı Qüvvələrimizə eşq olsun! Yaşasın Azərbaycan!


ŞUŞAYA İLK AZƏRBAYCAN BAYRAĞINI SANCAN VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin baş giziri, Vətən Müharibəsi Qəhrəmanı Yaşar Hüseynov bu il Bakı Mühəndislik Universitetinin (BMU) tələbəsi adını qazanıb. O, universitetin Memarlıq və inşaat fakültəsinin “Dizayn” ixtisası üzrə birinci kursunda təhsil alır. Ağdam rayonunun Abdal qəsəbəsində anadan olan Yaşar Hüseynov doğma yurdunun işğalından sonra ailəsi ilə birlikdə Bərdə rayonunda məskunlaşıb. Orta təhsilini 1999-cu ildə başa vurub, 2000-ci ildə hərbi xidmətə çağırılıb. 2001-ci ilin martından Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlayıb. O, hərbi xidmət illərində bir sıra mühüm döyüş əməliyyatlarında iştirak edib. 2014-cü ilin avqustunda Goranboy rayonunun Gülüstan qəsəbəsi yaxınlığında döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb. Səkkiz ay davam edən müalicədən sonra 2015-ci ilin aprelində yenidən hərbi xidmətə qayıdıb. 2016-cı ilin Aprel döyüşlərində də fərqlənib.



BMU tələbəsinin zəfər təəssüratları

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Şuşa şəhərlərinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Füzuli rayonunun Gorazıllı yaşayış məntəqəsinin azad olunması zamanı yaralanaraq xəstəxanaya yerləşdirilib. Müalicəsi tam başa çatmadan oktyabrın 21-də yenidən döyüş bölgəsinə qayıdıb. Şuşanın azad olunması uğrunda döyüşlərdə iştirak edən Yaşar Hüseynov noyabrın 5-dən 6-na keçən gecə şəhərə daxil olan hərbçilərimiz sırasında olub. Noyabrın 6-da bölmə komandiri və digər hərbçilərlə birlikdə şəhərin düşməndən təmizlənməsində yaxından iştirak edib. Noyabrın 7-də Şuşa şəhərində yerləşən Duma binasının üzərindəki separatçı rejimin bayrağını çıxararaq Azərbaycan bayrağını sancıb və işğaldan sonra həmin binanın üzərində ilk dəfə azan səsləndirib.



Hərbi xidmətini sonrakı illərdə də davam etdirən Yaşar Hüseynov 2021-ci ildə Kəlbəcər rayonu ərazisində, Basarkeçər istiqamətində sərhədlə bağlı fəaliyyətlərdə, 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı zamanı isə Xankəndi və ətraf yaşayış məntəqələrinin azad olunmasında iştirak edib.

Döyüşlərdə göstərdiyi şücaət və xidmətlərinə görə Yaşar Hüseynov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə “Vətən Müharibəsi Qəhrəmanı” adı alıb. O, həmçinin “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib. Müxtəlif illərdə müdafiə nazirlərinin əmrləri ilə 1-ci, 2-ci və 3-cü dərəcəli “Qüsursuz xidmətə görə”, 2-ci və 3-cü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə”, “Şücaətə görə” medallarına, eləcə də Azərbaycan Silahlı Qüvvələrinin 10, 90, 95 illiyi və “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medallarına layiq görülüb.

Ailəli olan Yaşar Hüseynov bir oğul və bir qız atasıdır. Birinci Qarabağ müharibəsi zamanı onun üç qardaşı da Ağdamın müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. Qardaşlarından Sadiq və Fərman Hüseynov müharibə veteranıdır. Digər qardaşı Füzuli Hüseynov 1994-cü il aprelin 16-da Ağdam rayonunun Yusifcanlı istiqamətində gedən döyüşlərdə şəhid olub.

Yaşar Hüseynovun Vətən qarşısındakı xidmətləri dövlətimizin daima xüsusi diqqətindədir. Prezident İlham Əliyevin müxtəlif tədbirlərdə qəhrəman hərbçimizə şəxsən yaxınlaşaraq onunla görüşməsi, səmimi münasibət göstərməsi dövlət səviyyəsində onun şücaətinə və xidmətlərinə verilən yüksək ali ehtiramın bariz ifadəsidir.

Vətənə xidmətləri ilə tarix yazan Yaşar Hüseynovun BMU-da ali təhsil almağa başlaması onun həyatında yeni bir mərhələnin başlanğıcıdır. Hərbi xidmətlə yanaşı, bilik və bacarıqlarını inkişaf etdirməyə qərar verən qəhrəmanımızın universitet tələbəsi olması, eyni zamanda təhsilə və şəxsi inkişafa göstərdiyi maraq qürurvericidir Onun timsalında Vətənə xidmətin, fədakarlığın və daim öyrənməyə, inkişafa can atmağın gözəl nümunəsini görürük.

Tələbə adını qazanması ilə bağlı təəssüratlarını bölüşən Yaşar Hüseynov bildirib ki, insan hansı yaşda olmasından asılı olmayaraq, öyrənməyə, öz üzərində işləməyə və yeni biliklər qazanmağa can atmalıdır.

“Hərbi xidmət mənim həyatımın əsas istiqaməti olub. Bu illər ərzində Vətənə xidmət etməyi, üzərimə düşən vəzifəni məsuliyyətlə yerinə yetirməyi özümə borc bilmişəm. İndi isə həyatımın yeni mərhələsində təhsil almaq, bilik və bacarıqlarımı inkişaf etdirmək qərarına gəlmişəm”.

O, insanın özünü inkişaf etdirməsi üçün heç vaxt gec olmadığını vurğulayaraq qeyd edib: “Universitet həyatı mənə yeni biliklər əldə etmək, fərqli dünyagörüşünə malik insanlarla ünsiyyət qurmaq və təcrübə qazanmaq imkanı yaradacaq”.

Azərbaycan dövlətinin Vətən müharibəsi iştirakçılarına, o cümlədən gənclərə göstərdiyi diqqət və qayğıdan danışan Yaşar Hüseynov gənclərə qarşılarına məqsəd qoymağı, çətinliklərdən çəkinməməyi və daim öyrənməyi tövsiyə edib: “Vətənə xidmət yalnız hərbi meydanda deyil, insanın öz peşəsində, biliyi və əməyi ilə cəmiyyətə verdiyi töhfədə də özünü göstərir. Əminəm ki, hər birimiz öz sahəmizdə məsuliyyətlə çalışmaqla ölkəmizin inkişafına töhfə verə bilərik”.

Beləliklə, Yaşar Hüseynovun həyat yolu göstərir ki, Vətənə bağlılıq, iradə və əzm insanı daim yeni hədəflərə doğru aparır. Onun hərbi sahədə qazandığı uğurlardan sonra təhsil yolunu seçməsi gənc nəslə mühüm mesaj verir: inkişafın, öyrənməyin və özünü təkmilləşdirməyin yaşı yoxdur.

Şölə ƏLİYEVA

Bəzən bir şəhərin azadlığı bütöv bir xalqın taleyini dəyişir, bir qələbə illərlə qəlblərdə yaşadılan arzuları gerçəyə çevirir. Elə qələbələr var ki, yalnız döyüş meydanında deyil, xalqın yaddaşında, tarixində və milli qürurunda əbədiləşir. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi də Azərbaycan tarixində belə möhtəşəm hadisələrdən biri oldu. Həmin gün Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı Zəfəri çoxəsrlik tariximizə qızıl hərflərlə yazıldı. Məhz 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi bizim tarixi qələbəmizlə başa çatdı. 44 günlük müharibə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun şücaəti sayəsində işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələndi. Otuz ilə yaxın müddətdə hər bir azərbaycanlının qəlbində bir həsrət, bir nisgil, bir müqəddəs arzu yaşayırdı: Qarabağa qayıtmaq, Şuşada üçrəngli bayrağımızın dalğalandığını görmək! Bu arzu illərlə nəsildən-nəslə ötürüldü, ümidlərimizdən, dualarımızdan və Vətən sevgimizdən güc aldı.Nəhayət, 2020-ci il noyabrın 8-də həmin arzu gerçəyə çevrildi. Azərbaycan Ordusu Şuşanı işğaldan azad etməklə tariximizin ən şanlı səhifələrindən birini yazdı.

ŞUŞANIN FƏTHİ

Zəfər tariximizi yazan Rəşadətli Azərbaycan Ordusu

8 Noyabr - Zəfər Günü yalnız hərbi qələbənin təntənəsi deyil. Bu tarix milli birliyimizin, sarsılmaz iradəmizin, Vətən sevgimizin və ərazi bütövlüyümüz uğrunda apardığımız mübarizənin rəmzidir. 44 günlük Vətən müharibəsi ərzində Azərbaycan Ordusu bir-birinin ardınca şəhər və kəndlərimizi işğaldan azad edərək tarixi torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandırdı. Döyüş meydanında qazanılan uğurlar, əsgər və zabitlərimizin misilsiz qəhrəmanlığı, xalqımızın sarsılmaz birliyi bu böyük Zəfərin təməlini qoydu. Noyabrın 8-də Şuşanın azad edilməsi isə Vətən müharibəsinin taleyini həll edən tarixi hadisə oldu və Qələbəmizin rəmzinə çevrildi.

Şuşanın azadlığı bir şəhərin deyil, bütöv bir xalqın qürurunun, milli kimliyinin və tarixi yaddaşının zəfəri idi.

Dünya hərb tarixinə düşən Şuşa əməliyyatı

Müzəffər Azərbaycan Ordusunun Şuşanın azad olunması uğrunda apardığı əməliyyat və nümayiş etdirdiyi misilsiz qəhrəmanlıq Azərbaycanın hərb tarixində olduğu kimi, dünya hərb tarixində də özünəməxsus yer tutur. Şuşa əməliyyatı mürəkkəb relyef şəraitində yüksək peşəkarlıq, cəsarət, döyüş hazırlığı və qətiyyət tələb edən, öz unikallığı ilə seçilən hərbi əməliyyat kimi tarixə düşüb.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Rəşadətli Ordumuzu qələbəyə aparan güclü iradə, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi.

Şuşanın alınması ilə bağlı xüsusi əməliyyat hazırlanmışdı. Noyabrın 8-də Azərbaycanın incisi Şuşa erməni qəsbkarlarından azad edildi. Bu xoş müjdəni Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa Şəhidlər Xiyabanında çatdırdı.

Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi

Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi Şuşa şəhəri tarix boyu çox möhtəşəm tədbirlərin keçirildiyi məkan olub. Bu qədim və əsrarəngiz şəhər Qafqazın konservatoriyası, Azərbaycanın musiqi beşiyi sayılıb. İlk dəfə 1989-cu ildə keçirilmiş "Xarıbülbül" festivalı Vətən müharibəsində qazanılmış parlaq zəfərdən sonra - 2021-ci ilin 12-13 may tarixlərində Şuşada Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən təşkil olundu. "Xarıbülbül" festivalının açılış mərasimində dövlət başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", - demişdi.Və elə də oldu. Artıq hər ilin may ayında "Xarıbülbül" festivalı təşkil olunur. Festivalın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva, mədəniyyət, ictimaiyyət xadimləri, xarici qonaqlar iştirak edirlər.

Şuşada eyni zamanda bir-birindən maraqlı yerli və beynəlxalq səviyyəli tədbirlər keçirilməkdədir.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi də əlamətdar hadisə oldu. Bu münasibətlə ölkəmizdə, eləcə də mədəniyyət paytaxtımız Şuşada silsilə tədbirlər təşkil edildi.

Bildiyimiz kimi, Şuşanın təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulub Şəhər ilkin dövrlərdə Pənahəli xanın şərəfinə Pənahabad adlandırılıb. Qısa müddətdə Qarabağ xanlığının paytaxtına və regionun mühüm siyasi, iqtisadi və mədəniyyət mərkəzinə çevirib.

"İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür", - deyən Prezident bildirib ki, hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik.

Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdədir

Bu gün Şuşa dirçəlir və orada həyat canlanır. Şuşa şəhəri quruculuq və inkişaf dövrünü yaşayır. Şəhərdə tarixi-mədəni irsin bərpası ilə yanaşı, infrastruktur layihələri də icra olunur, keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışının təmin olunması üçün yeni yaşayış binaları inşa edilir. Şuşa şəhərində birinci yaşayış kompleksi 2024-cü ildə istifadəyə verilib. İyirmi üç binadan ibarət bu yaşayış kompleksində keçmiş məcburi köçkünlərin məskunlaşması təmin edilib. Hazırda isə digər yaşayış massivlərində çoxmənzilli binalar inşa olunur.

Bəli, görülən bütün bu işlər, həyata keçirilən möhtəşəm layihələr torpağa, Vətənə olan sonsuz məhəbbətdən, doğma yurda bağlılıqdan qaynaqlanır. Bu gün Şuşada aparılan genişmiqyaslı quruculuq və bərpa işləri Azərbaycanın öz tarixi torpaqlarına sahib çıxmasının, milli-mədəni irsini yaşatmasının bariz nümunəsidir.

Ermənilər tərəfindən güllələbaran edilərək zədələnmiş Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstləri artıq öz doğma torpağına qaytarılıb. Üzeyir Hacıbəylinin abidəsi yenidən ucaldılıb, Bülbülün ev-muzeyi bərpa olunaraq açılıb. Şuşanın tarixi, dini və mədəni abidələri, məscidlərimiz öz əvvəlki görkəminə qovuşub.

Maarifçilik ənənələri bərpa olunur

Xüsusilə qeyd etmək lazımdır ki, Şuşanın dirçəldilməsində təhsil sahəsinə də böyük diqqət ayrılır. Uzun illər doğma şəhərindən ayrı düşmüş əslən şuşalı olan uşaqların öz yurdlarında təhsil almaları üçün mühüm addımlar atılır. Belə ki, 2023-cü il noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər. Bu açılış Şuşanın yenidənqurma və bərpa salnaməsində xüsusi məna daşıyırdı. Çünki açılan yalnız bir məktəbin qapıları deyildi. Eyni zamanda, uzun illər fasiləyə uğramış təhsil həyatına, doğma yurdda qurulan yeni arzulara və gələcəyə aparan yolun qapıları açılırdı.

960 şagird yerlik üçmərtəbəli məktəbdə müasir sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika kabinetləri, STEAM mərkəzi, kitabxana, musiqi və rəssamlıq otaqları, idman və akt zalları yaradılıb. Bu təhsil ocağı Şuşanın maarifçilik ənənələrinin yenidən dirçəldilməsinin mühüm göstəricisidir. Bu gün həmin təhsil ocağında dərs zəngi səslənir, sinif otaqlarını şagirdlərin səsləri bürüyür, müəllimlərin öyrədən, istiqamət verən, gələcəyə inam aşılayan dərsləri ilə müşayiət olunur. Müəllimlər doğma Şuşada yenidən tədris prosesinin iştirakçısı olmaqdan, bilik və təcrübələrini bu torpağın övladlarına ötürməkdən böyük qürur duyurlar. Onlar yalnız fənləri tədris etmir, eyni zamanda şagirdlərə Vətən sevgisi, milli-mənəvi dəyərlərə bağlılıq, tariximizə və mədəni irsimizə hörmət hissi aşılayırlar.

Digər təhsil müəssisələrində də aparılan quruculuq-bərpa işləri Şuşanın yalnız mədəniyyət deyil, həm də elm və təhsil mərkəzi kimi əvvəlki şöhrətinin bərpasına xidmət edəcək. Bütün bunlar göstərir ki, Şuşada yalnız binalar, yollar və tarixi abidələr deyil, həm də şəhərin elmi, təhsil və mədəni həyatının gələcəyi yenidən qurulur. Burada yetişən yeni nəsil yalnız doğma torpağında təhsil almaqla kifayətlənməyəcək, həm də Şuşanın zəngin tarixini, mədəni irsini və milli-mənəvi dəyərlərini yaşadaraq gələcək nəsillərə ötürəcək. Onlar bu qədim şəhərin tarixinin davamçıları, mədəniyyətinin qoruyucuları və gələcəyinin qurucuları olacaqlar.

Artıq bu gün biz görürük ki, Şuşa öz əvvəlki əzəmətinə qovuşur və dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdədir. Bütün bunlar Böyük Qayıdışın real nəticələridir.

Bu sevinci bizə yaşatdığı, torpaqlarımızın azadlığı uğrunda canından keçən minlərlə şəhidimizin qanını yerdə qoymadığı üçün Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığımız sonsuz və hüdudsuzdur.

Samirə KƏRİMOVA

“BÖYÜK QAYIDIŞ” PROQRAMI ÇƏRÇİVƏSİNDƏ MÜASİR TƏHSİL İNFRASTRUKTURU YARADILIR

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin 2022-ci ildə imzaladığı müvafiq Sərəncama əsasən, Zəngilan şəhərində 960 şagird yerlik tam orta ümumtəhsil məktəb binasının layihələndirilməsi və tikintisinə başlanılıb. 2025-ci ildə layihədə konseptual dəyişiklik edilərək, təhsil müəssisəsi Zəngilan Şəhər Təhsil Kompleksi olaraq peşəyönümlü tədris müəssisəsi kimi yenidən layihələndirilib.

Kompleksdə məktəbəhazırlıq, biologiya, informatika, çağırışaqədərki hazırlıq, “STEAM-STARTERS”, “STEAM-SCIENCE LAB”, “STEAM CHALLENG” otaqları, robot zonaları, laboratoriyalar, dərzi, santexnika çilingəri və elektrik montyoru emalatxanaları yaradılıb. Burada, həmçinin kitabxana, idman və akt zalları, yeməkxana da müəllim-tələbə heyətinin ixtiyarına veriləcək.

Ümumi ərazisi 1,6 hektar olan kompleksin həyətində də geniş abadlıq işləri aparılıb, açıq idman meydançası və qaçış zolağı yaradılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu təhsil siyasəti nəticəsində son illərdə yüzlərlə yeni məktəb binası tikilib, mövcud təhsil müəssisələri isə əsaslı təmir olunub. Bu siyasətin mühüm istiqamətlərindən biri də işğaldan azad olunmuş torpaqlarımızda “Böyük Qayıdış” Proqramı çərçivəsində hərtərəfli infrastrukturun yaradılmasıdır ki, təhsil müəssisələri də burada xüsusi yer tutur. Zəngilanda yeni təhsil kompleksinin istifadəyə verilməsi doğma torpaqlarına qayıdan ailələrin övladları üçün hər cür şəraitin yaradıldığının, onların keyfiyyətli təhsil almalarına göstərilən diqqət və qayğının əyani təzahürüdür. Müasir tədris imkanlarına malik bu kompleks gənc nəslin bilikli, savadlı yetişməsinə, onların peşə vərdişlərinin inkişafına mühüm töhfə verəcək.

***

Noyabrın 6-da Zəngilan şəhərində 160 yerlik körpələr evi-uşaq bağçasının da açılışı olub.


Qeyd edək ki, körpələr evi-uşaq bağçası “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası ilə bağlı inşa olunub.

Burada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların asudə vaxtlarının səmərəli təşkili, həmçinin balacaların ilkin bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılıb. Körpələr evi-uşaq bağçasında oyun, yataq, kompüter, tibb otaqları və idman zalı da var. Musiqi, rəqs və akt zalları da balacaların ixtiyarına veriləcək. Körpələr evi-uşaq bağçasının həyətində abadlıq işləri həyata keçirilib, balacaların açıq havada istirahəti üçün zəruri şərait yaradılıb.









Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Zəngilan rayonunun Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Qeyd edək ki, Cahangirbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal dövründədək kənddə məktəb, uşaq bağçası, mədəniyyət evi və rabitə şöbəsi fəaliyyət göstərib. Əhali isə əsasən baramaçılıq, taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olub. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 21-də kəndi işğaldan azad edib. Cahangirbəyli kəndinin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub.

AZƏRTAC xəbər verir ki, ümumi sahəsi 179,5 hektar olan Cahangirbəyli kəndində birinci mərhələ üzrə 62,57 hektar ərazidə 242 fərdi evin, məktəb binasının, körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin və çoxfunksiyalı binanın tikintisi həyata keçirilib. Evlər 2, 3, 4, 5 otaqlıdır. Onların hamısı su, işıq, qaz, Günəş panelləri və yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollar da asfaltlanıb.

Kənddəki çoxfunksiyalı binada həkim-tibb məntəqəsi, aptek, market, dərzi, gözəllik salonu fəaliyyət göstərəcək.

Cahangirbəylidə 80 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Buradakı otaqlarda uşaqların istirahəti, həmçinin onların ilkin bilik və bacarıqlarının üzə çıxarılması üçün zəruri şərait yaradılıb.

Kənddə, inzibati binanın yaxınlığında Bayraq meydanı da inşa edilib. Bayraq meydanının yaxınlığında isə uşaq oyun meydançası, sakinlərin sağlam həyat tərzinin təşviqi və fiziki aktivliyinin artırılması məqsədilə idman zonası və park yaradılıb.

Elm və təhsil naziri Emin Əmrullayev 264 şagird yerlik Cahangirbəyli tam orta ümumtəhsil məktəbinin binasında yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 13 sinif otağı, kimya və fizika fənləri üzrə 2 laboratoriya, musiqi, informatika, hərbi hazırlıq, rəsm və qrim otaqları, kitabxana, 160 yerlik akt zalı, qapalı idman zalı, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Məktəbin ərazisində 2 açıq idman meydançası da yaradılıb.



Qarabağ Universitetinin Kitabxanasının və İnnovasiya Mərkəzinin binalarının təməli qoyulub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Xankəndidə Qarabağ Universitetinin Kitabxanasının və İnnovasiya Mərkəzinin binalarının təməlqoyma mərasimlərində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binalarda yaradılacaq şərait barədə məlumat verildi. Bildirildi ki, kitabxana tədris, elmi-tədqiqat və innovasiya fəaliyyətinin dəstəklənməsi, müasir informasiya resurslarına çıxış imkanlarının genişləndirilməsi və tələbəyönümlü akademik mühitin formalaşdırılması baxımından mühüm infrastruktur obyektlərindən biri olacaq, tələbə və əməkdaşların təhsil, elmi-tədqiqat və informasiya ehtiyaclarının qarşılanmasına, müstəqil öyrənmə və tədqiqat bacarıqlarının inkişafına, həmçinin professor-müəllim heyətinin elmi fəaliyyətinin dəstəklənməsinə xidmət edəcək.

Müasir standartlara cavab verəcək dördmərtəbəli binada eyni vaxtda təxminən 1100 tələbənin istifadəsinə imkan verən funksional oxu zallarının, fərdi və qrup şəklində öyrənmə, görüş və akademik əməkdaşlıq üçün nəzərdə tutulan məkanların yaradılması planlaşdırılır. Universitetin akademik ehtiyaclarını qarşılamaqla və potensialını gücləndirməklə yanaşı, region ictimaiyyəti üçün də informasiya mənbəyi rolunu oynayacaq kitabxana binası elmi müzakirələrin, bilik və təcrübə mübadiləsinin təşviqinə, universitetlə əhali arasında əlaqələrin genişləndirilməsinə və Qarabağda sosial-mədəni mühitin inkişafına töhfə verəcək.

Qeyd edilib ki, Qarabağ Universitetinin İnnovasiya Mərkəzi innovasiya və sahibkarlıq ekosisteminin inkişafı, elmi-tədqiqat nəticələrinin praktiki tətbiqinin təşviqi, müasir texnologiyaların və innovativ ideyaların dəstəklənməsi baxımından mühüm infrastruktur obyektlərindən biri olacaq. Mərkəz tələbələrin yaradıcılıq, tənqidi düşünmə və problem həlletmə bacarıqlarının inkişafına, innovativ təşəbbüslərinin dəstəklənməsinə, həmçinin universitet-sənaye əməkdaşlığının genişləndirilməsinə xidmət edəcək. Mərkəz, eyni zamanda, Qarabağ regionunun sosial-iqtisadi inkişafına töhfə verən təşəbbüslərin dəstəklənməsi, yerli ehtiyaclara uyğun innovativ həllərin hazırlanması və universitetlə dövlət qurumları, özəl sektor və digər tərəfdaşlar arasında əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətli rol oynayacaq. Mərkəz universitetdə innovasiya mədəniyyətinin formalaşmasına, elmi biliklərin iqtisadi və sosial dəyərə çevrilməsinə, həmçinin Qarabağ regionunda texnoloji inkişafın, sahibkarlığın və bilikəsaslı iqtisadiyyatın təşviqinə töhfə verəcək.

Qarabağ Universitetinin Klinikasının Təcili tibbi yardım şöbəsi açılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Qarabağ Universitetinin Klinikasının Təcili tibbi yardım şöbəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Qarabağ Universitetinin rektoru Şahin Bayramov və Universitetin Klinikasının baş direktoru Samir Babayev burada yaradılmış şərait barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, təsdiq edilmiş memarlıq-planlaşdırma həllinə uyğun həyata keçirilən işlər çərçivəsində mövcud mühəndis-kommunikasiya sistemləri yenidən qurulub, şöbənin müasir tələblərə uyğun təşkili təmin edilib.

Təcili tibbi yardım şöbəsində xəstələrin qəbulu, müayinəsi və müalicəsinin səmərəli təşkili məqsədilə müasir tələblərə cavab verən funksional zonalar yaradılıb. Burada reanimasiya, uşaq pediatriya sahələri, palata, tibbi xidmətlərin və gündəlik fəaliyyətin təşkili üçün dərmanların saxlanılması və xidmətçi otaqları var. Şöbənin müvafiq tibbi avadanlıq və müasir mühəndis-kommunikasiya sistemləri ilə təchiz edilməsi onun funksional imkanlarının genişləndirilməsinə və tibbi xidmətlərin səmərəli təşkilinə imkan yaradır. İlkin qiymətləndirilməsi aparılmış pasiyentlərin tibbi göstərişlərə uyğun olaraq digər müəssisələrə köçürülməsi üçün reanimasiya və intensiv terapiya imkanları ilə təchiz edilmiş təcili tibbi yardım avtomobilləri mövcuddur.

Klinikada hazırda 70 stasionar, o cümlədən 5 reanimasiya çarpayısı var. Əlavə olaraq Təcili yardım şöbəsində 19 çarpayı və 5 əməliyyat zalı nəzərdə tutulub. Beləliklə, burada eyni vaxtda 70 stasionar və 19 təcili yardım pasiyentinə xidmət göstərmək mümkün olacaq.

Tibb müəssisəsində 2027-ci il üzrə inkişaf planı çərçivəsində ümumilikdə 230-250 əməkdaşın çalışması proqnozlaşdırılır.

Universitet Klinikasının əsas missiyası yalnız tibbi xidmət göstərmək deyil, eyni zamanda, müasir tibb təhsili, klinik təcrübə və gələcəkdə elmi-tədqiqat fəaliyyətini birləşdirən tibb mərkəzi kimi inkişaf etməkdən ibarətdir.

Prezident İlham Əliyev Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, nazirliyin sifarişi ilə Şuşa Dövlət Peşə Təhsil Mərkəzində əsaslı təmir işlərinə 2025-ci ilin mart ayında başlanılıb. İkimərtəbəli, 360 yerlik tədris binasında 9 emalatxana, 3 təlimat sahəsi, musiqi alətlərinin hazırlanması və bərpası emalatxanası, 5 tədris otağı, rəsm otağı, fizika və kimya laboratoriyaları, laborant, informatika və hərbi təlim otaqları, həmçinin yeməkxana var.

Şuşa Dövlət Peşə Təhsil Mərkəzinin beşmərtəbəli yataqxanasında akt zalı, texniki yaradıcılıq sahəsi, emalatxanalar, kitabxana, o cümlədən elektron kitabxana, tədris və yataq, istirahət və fitnes otaqları, ictimai iaşə obyekti yerləşir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən biri də insan kapitalının inkişafı və müasir təhsil infrastrukturunun formalaşdırılmasıdır. Ölkə miqyasında son illərdə yüzlərlə yeni məktəb binasının inşası, mövcud tədris ocaqlarının əsaslı təmiri və ən son texnoloji avadanlıqlarla təchiz olunması gənc nəslin yüksək standartlara cavab verən təhsillə təmin edilməsinə geniş imkanlar açıb. Bu baxımdan Şuşa Dövlət Peşə Təhsil Mərkəzi böyük əhəmiyyətə malikdir. Mərkəz bölgədə geniş vüsət alan bərpa və quruculuq işlərində bilavasitə iştirak edəcək yerli ixtisaslı kadrların, peşəkar mütəxəssislərin hazırlanmasında mühüm platformaya çevriləcək.







Nazir Çin Xalq Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



Noyabrın 11-də elm və təhsil naziri Emin Əmrullayev Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Lu Mei ilə görüşüb. Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində mövcud əlaqələr, eləcə də gələcəkdə icrası nəzərdə tutulan birgə təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Elm və təhsil naziri Ağstafada vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev noyabrın 27-də Ağstafa şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Ağstafa, Qazax, Tovuz sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 18 noyabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/-contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür. Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

Emin Əmrullayev Corc Vaşinqton Universitetinin nümayəndələri ilə görüşüb



Noyabrın 11-də elm və təhsil naziri Emin Əmrullayev Corc Vaşinqton Universitetinin nümayəndələri ilə görüşüb. Görüş çərçivəsində sözügedən ali təhsil müəssisəsi ilə cari əlaqələr, habelə beynəlxalq ikili diplom proqramı üzrə əməkdaşlıq, eləcə də inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir müavini Tərtər rayonuna səfər edib

Firudin Qurbanov səfər çərçivəsində bir sıra təhsil müəssisələrinin fəaliyyəti ilə tanış olub, vətəndaş qəbulu və görüşlər keçirib









Noyabrın 2-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Tərtər rayonuna səfər edib. Səfər çərçivəsində bir sıra təhsil müəssisələrinin fəaliyyəti ilə tanışlıq, vətəndaş qəbulu, eləcə də görüşlər keçirilib. Əvvəlcə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla birlikdə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Daha sonra nazir müavini Ağdərə rayonunun Suqovuşan kənd tam orta ümumtəhsil məktəbində olub. Məktəbin mövcud vəziyyəti, tədris şəraiti və təhsilalanlar üçün yaradılmış imkanlarla tanışlıq zamanı təhsil müəssisəsinin fəaliyyəti barədə məlumat verilib. Səfər zamanı vətəndaş qəbulu keçirilib. Qəbulda vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar verilib.

Firudin Qurbanov Tərtər şəhəri 5 nömrəli körpələr evi-uşaq bağçasında da olub. Müəssisənin fəaliyyəti, uşaqların təlim-tərbiyəsi üçün yaradılmış şərait və tədris prosesi ilə tanış olub.

Bununla yanaşı, nazir müavini şəhid ailələri və region üzrə Vətən müharibəsi iştirakçısı olan bir qrup təhsil işçisi ilə görüşüb. Görüşdə şəhid olmuş təhsil işçilərinin təhsil sahəsindəki fəaliyyəti və Vətən qarşısındakı xidmətləri ehtiramla yad edilib. Şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən dövlət qayğısından bəhs olunub, onların müraciətləri və qaldırdıqları məsələlər dinlənilib. Həmçinin şəhid ailələrinin sosial məsələlərinin diqqətdə saxlanılmasının, onların müraciətlərinə həssaslıqla yanaşılmasının vacibliyi vurğulanıb.

Görüşün sonunda nazir müavini Firudin Qurbanov iştirakçıları qarşıdan gələn 8 Noyabr — Zəfər Günü və 9 Noyabr — Dövlət Bayrağı Günü münasibətilə təbrik edib, onlara möhkəm cansağlığı və uğurlar arzulayıb.

Səfərin davamında Qarabağ Regional Təhsil İdarəsinin əməkdaşları, ümumi təhsil müəssisələrinin rəhbərləri, gənc müəllimlər, psixoloqlar və tərbiyəçi-müəllimlərlə görüş keçirilib. Görüşdə yeni tədris ili üzrə prioritetlər və qarşıya qoyulan hədəflər, təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkar inkişafı, eləcə də təhsilalanların inkişafında psixoloji-pedaqoji dəstəyin əhəmiyyəti müzakirə olunub.Çıxışlar zamanı regionda təhsilin inkişafı, mövcud çağırışlar, təhsil göstəricilərinin yaxşılaşdırılması və pedaqoji kollektivlərin qarşısında duran əsas vəzifələr diqqətə çatdırılıb. Görüş iştirakçılarının fikir və təklifləri dinlənilib, onları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

"Söhbət məktəbdə formalaşdırmaq istədiyimiz təhsil mühitindən, qarşılıqlı hörmət və bərabərliyin təmin olunmasından gedir"

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov APA İnformasiya Agentliyinə müsahibə verib. "Azərbaycan müəllimi" müsahibəni təqdim edir:



– Firudin müəllim, gələcəyin gənclərini necə görməliyik?

– Gənclər qarşısında yeni dövrün yeni vəzifələrini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev belə ifadə edib: "Bizim gənclərimiz xarici dairələrin təsiri altına düşməməlidir, peşəkar, bilikli, həm fiziki, həm mənəvi cəhətdən sağlam olmalısınız və elə etməlisiniz ki, Azərbaycan daim inkişaf etsin və müstəqil ölkə kimi öz sözünü desin, formal olaraq yox, real!".

Bu baxımdan ölkəmizin qarşısında duran əsas prioritet XXI əsrin çağırışlarına cavab verən, yaradıcı və tənqidi təfəkkürə, hərtərəfli dünyagörüşünə, zəruri bilik və bacarıqlara malik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, innovativ texnologiyalardan, xüsusilə süni intellektdən səmərəli istifadə etməyi bacaran, ailəsi, cəmiyyəti və dövləti qarşısında məsuliyyətini dərk edən, Vətənin dinc quruculuğuna və müdafiəsinə hazır olan yeni nəslin formalaşdırılmasıdır.

Bir neçə ildən sonra texnoloji inkişafın sürətlənməsi və süni intellektin geniş tətbiqi nəticəsində tamamilə yeni peşələr meydana çıxacaq. Bu gün elə gənclər formalaşmalıdır ki, "çərçivə"dən — kənar düşünmək, müstəqil öyrənmək, davamlı özünüinkişaf etdirmək və intellektual səviyyələrini yüksəltmək bacarıqlarına malik olsunlar, qlobal miqyasda rəqabətədavamlı insan kapitalı kimi yetişsinlər. Yalnız bilikli, yaradıcı və sağlam mənəviyyatlı gənclər ölkəmizin əsas gücü və gələcək inkişafının təminatçısı ola bilərlər.

Təsadüfi deyil ki, Azərbaycanın təhsil siyasəti və strategiyasında yuxarıda sadalananlar prioritet istiqamətlər kimi müəyyənləşdirilib.

– Məlum olduğu kimi, Nazirlər Kabinetinin müvafiq qərarı ilə "Dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyim ilə bağlı Tələblər" təsdiq edilib. Bundan əlavə, "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"ndə də dəyişiklik olunub. Bu qərarları ümumi şəkildə necə şərh edərdiniz?

– İlk növbədə, bu məsələyə yalnız geyim qaydaları çərçivəsində yanaşmağı düzgün hesab etmirik. Burada söhbət məktəbdə formalaşdırmaq istədiyimiz sosial bərabərliyə əsaslanan təhsil mühitindən, təhsilverənlər və təhsilalanlar arasında qarşılıqlı hörmət və bərabərliyin təmin olunmasından gedir. Şagird sinfə daxil olanda özünü hansısa ailənin maddi imkanlarına, valideyninin dünyagörüşünə və ya başqasının geyiminə görə fərqləndirilən bir şəxs kimi deyil, eyni məktəb icmasının ləyaqətli bir üzvü kimi hiss etməlidir.

Qeyd edilməlidir ki, bu qərarlar yeni yanaşmanın sıfırdan formalaşdırılması demək deyil. Şagirdlərin geyim formalarının təsvirləri əvvəlki dövrdə də normativ qaydada müəyyən edilmişdi. Son dəyişikliklər tələblərin daha aydın və birmənalı şəkildə tətbiqinə, məktəbli formasının vahidliyini pozan əlavə elementlərlə bağlı mümkün müxtəlifliyin aradan qaldırılmasına xidmət edir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunduğu kimi, təhsil sistemimiz dünyəvi xarakter daşıyır. Qaydalar da bu prinsipləri özündə ehtiva edir.

Təhsilverənlərin geyiminə dair ayrıca tələblərin təsdiq olunması isə müəllimin məktəbdə təkcə bilik verən deyil, həm də şəxsi davranışı, ünsiyyəti və geyim mədəniyyəti ilə nümunə olan şəxsiyyət kimi rolunu nəzərə alır. Vahid yanaşmaya uyğun geyim məktəb daxilində nizam-intizamın güclənməsinə xidmət edir, müəllimlərin işgüzar üslubda görünməsi məktəbin ictimai nüfuzuna müsbət təsir göstərir.

İddia olunduğu kimi, bu Qaydalar müəllimlərin vahid uniformadan istifadə etməsi ilə bağlı deyil, halbuki ictimaiyyətdə bu mövzu ilə bağlı vətəndaşlarda çaşqınlıq yaratma cəhdləri var idi. Bilirsiniz, bu gün məktəbdə çalışan hər bir insan təkcə şagirdlər üçün deyil, davranışı və həmçinin zahiri görünüşü ilə bütün cəmiyyət üçün bir örnək rolu oynamalıdır. Çünki məktəb təhsil müəssisəsi olmaqla yanaşı, həm də tərbiyə məkanıdır.

– Dövlət ümumi təhsil müəssisələri üçün müəyyən edilmiş vahid geyim qaydaları özəl məktəblərə də şamil olunacaqmı?

– Mövcud geyim qaydaları dövlət ümumi təhsil müəssisələrini əhatə edir. Bununla belə, özəl ümumi təhsil müəssisələri də öz Nizamnamələrinə uyğun olaraq özləri üçün müvafiq geyim qaydalarını müəyyən edə bilərlər.

Lakin bu mövzuda məktəbləri dövlət və özəl əsasda fərqləndirmək valideynlər tərəfindən birmənalı qarşılanmaya bilər. Şagirdlərin təhlükəsizliyinin təmin edilməsi, təhsil hüququnun qorunması, məktəbdaxili nizam-intizamın möhkəmləndirilməsi məqsədilə bu məsələlərin həlli bütün təhsil müəssisələri üçün eyni dərəcədə əhəmiyyətlidir. Hesab edirik ki, bu prinsiplərin bütün məktəblərdə ardıcıl şəkildə tətbiqi təhsil mühitinin daha sağlam və nizamlı təşkilinə müsbət təsir göstərə bilər.

– Geyim Qaydalarına əməl etməyən şagird və müəllimlər dərsə buraxılmadıqları təqdirdə hansı tədbirlər görülür?

– İlk növbədə, valideynlərə müraciət etmək istərdik – böyüklər arasında hansı fikir ayrılığı yaranırsa-yaransın, onun nəticəsini uşaqlar təhsildən geri qalmaqla yaşamamalıdırlar. Qanunvericiliyə görə, hər bir valideyn övladının dərsə davamiyyətinə, məktəbin qaydalarına əməl etməsinə və tərbiyəsinə görə məsuliyyət daşıyır. Dərsə davamlı gəlməmək şagirdin biliyində boşluqlar yaradır, qiymətləndirilməsinə və növbəti təhsil mərhələsinə keçməsinə təsir edir. Hesab edirik ki, bu istiqamətdə maarifləndirmə işlərinə üstünlük verilməlidir.

Müəllimlərlə bağlı məsələyə gəldikdə isə, bu, əmək münasibətləri və qanunvericiliyi ilə tənzimlənən məsələdir.

Geyimlə bağlı müəyyən edilmiş tələblərə riayət olunması müəllimlərin peşə fəaliyyətinə və əmək intizamına, əmək müqaviləsinə dair öhdəliklərinin bir hissəsidir. İşə qəbul edilmiş şəxs əmək müqaviləsinin, daxili intizam qaydalarının və ona qanuni qaydada şamil olunan tələblərin icrasına məsuliyyət daşıyır. Üzrlü səbəb olmadan işə çıxmamaq, əmək funksiyalarını yerinə yetirməmək və ya intizam tələblərinin təkrar pozulması qəbulolunmazdır, qanunazidd hərəkət kimi dəyərləndirilir. Heç kəsə sirr deyil ki, artıq müəllimlərin böyük çoxluğu bu Qaydaların tələblərini gözləyir və tədris fəaliyyətini davam etdirir. Gözləntimiz bundan ibarətdir ki, müəllimlərimiz bu məsuliyyətli məqamda məktəb və şagirdlərinin yanında olacaqlar, vəzifə öhdəliklərini ləyaqətlə yerinə yetirəcəklər.

– Ümumiyyətlə, təhsil müəssisələrində geyim qaydaları ilə bağlı hansı beynəlxalq təcrübələr var?

– Bu məsələ ilə bağlı bütün dünyada tətbiq olunan vahid model yoxdur. Müxtəlif ölkələr bu məsələyə öz hüquq sistemi, məktəb ənənələri və ictimai ehtiyacları əsasında yanaşırlar. Məsələn, Qırğızıstan Respublikasında Hökumət qərarı ilə I—XI sinif şagirdləri üçün klassik üslubda geyim tələbləri müəyyənləşdirilib. Türkmənistanda məktəblilər üçün müəyyən edilmiş vahid milli geyim ənənəsi tətbiq olunur. Qızlar yaşıl don və ağ önlükdən, oğlanlar isə kostyum və qalstukdan istifadə edirlər. Qazaxıstanda məktəbli formasında müxtəlif dini konfessiyalara mənsubluğu göstərən geyim elementlərindən istifadəyə icazə verilmir. Tacikistan Respublikası Təhsil və Elm Nazirliyinin Kollegiyasının qərarı ilə şagirdlər, tələbələr və müəllimlər üçün tövsiyə olunan geyim qaydaları təsdiqlənib. Həmin sənəddə təhsil müəssisələrində klassik geyim üslubuna üstünlük verilir, xarici görünüşə dair müəyyən məhdudiyyətlər, o cümlədən dini xarakterli baş örtüklərinə münasibətdə tələblər nəzərdə tutulur.

Hətta Türkiyədə də bununla bağlı hüquqi tənzimləmə mövcuddur. Şagirdlərin geyim və xarici görünüşünü müəyyən edən müvafiq əsasnaməyə əsasən, məktəbəqədər təhsil müəssisələrində və ibtidai məktəblərdə şagirdlərin məktəb daxilində başıaçıq olması nəzərdə tutulur.

Bütün bu nümunələr göstərir ki, vahid məktəbli geyimi təhsil mühitinin təşkilində beynəlxalq praktikada da istifadə olunan vasitələrdən biridir. Bu qaydaların məqsədi şagirdlərin şəxsi seçimlərini müzakirə etmək deyil. Məqsəd məktəbdə təhsilin mahiyyətinə uyğun, nizam-intizamın və qarşılıqlı hörmətin qorunduğu, bütün təhsilalanlar üçün vahid yanaşmaya əsaslanan mühitin formalaşdırılmasıdır.

– X—XI siniflərdə geyim Qaydalarına riayət etməyən və dərsə gəlməyən şagirdlərə attestat veriləcəkmi?

– Şagirdlərin yekun attestasiyası və biliklərinin qiymətləndirilməsi Nazirlər Kabinetinin 12 dekabr 2016-cı il tarixli 498 nömrəli qərarı ilə tənzimlənir. Biliyi hər hansı səbəbdən asılı olmayaraq qiymətləndirilməyən şagirdə ümumi və ya tam orta təhsil haqqında attestat verilmir.

– Peşə, orta ixtisas və ali təhsil müəssisələrində də vahid geyim tələblərinin tətbiqi nəzərdə tutulurmu?

– Hazırda söhbət konkret olaraq yalnız dövlət ümumi təhsil müəssisələrinin təhsilalanları və təhsilverənləri üçün müəyyən edilmiş geyim Qaydalarından gedir. Hazırda adı çəkilən təhsil müəssisələrində təhsilalanların vahid geyim tələblərinin tətbiqi məsələsi nəzərdə tutulmur.

– Geyim qaydalarına riayət olunmasına dair monitorinqlər məktəblərdə davamlı şəkildə aparılacaqmı? Proses necə gedir?

– Bəli, monitorinqlərin davam etdirilməsi nəzərdə tutulur. Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən aparılan bu monitorinqlər həm təhsilalanların, həm də təhsilverənlərin geyim qaydalarını əhatə edir. Monitorinqlərin məqsədi yalnız kiminsə nə geyindiyini qeydə almaq deyil, qaydaların məktəblərdə necə izah və icra edildiyini, rəhbərliyin üzərinə düşən nəzarət və maarifləndirmə işlərini nə dərəcədə yerinə yetirdiyini də izləməkdir. Başqa sözlə, həm şagirdin, həm müəllimin, həm də məktəb idarəçiliyinin məsuliyyətinə baxılır.

İlk monitorinqlər zamanı uyğun olmayan geyim halları üzrə bütün təhsil iştirakçıları ilə söhbətlər aparılıb, zəruri hallarda valideynlər də məktəbə dəvət edilib, müvafiq izahat işləri aparılıb. Bu istiqamətdə pedaqoji şuralar iş aparır və məktəb rəhbərliyi də qərarlara riayət olunmasına dair üzərlərinə düşən missiyanı yerinə yetirir.

Artıq monitorinqlər çərçivəsində müvafiq icra hakimiyyəti qurumları dərsə gəlməyən şagirdlərin ailələri ilə görüşlərə başlayıb. Bildiyiniz kimi, mövcud təhsil qanunvericiliyinə görə ümumi təhsil icbari xarakter daşıyır.

Bizim üçün vacib olan odur ki, müəyyən edilmiş qaydaların tətbiqi ziddiyyət mənbəyinə deyil, qarşılıqlı anlaşma və əməkdaşlığın güclənməsinə xidmət etsin. Bu baxımdan məktəb rəhbərliyi tələbləri əvvəlcədən təhsil iştirakçılarına izah etməli, valideynləri vaxtında məlumatlandırmalı, hər bir konkret vəziyyətə fərdi yanaşmalı və zəruri hallarda müvafiq təhsili idarəetmə qurumları ilə koordinasiya etməlidir.

Bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, xüsusi bəzəkdən istifadə edən, zinət əşyaları taxan, eləcə də müəyyən edilmiş məktəbli formasından fərqli geyim tərzində təhsil müəssisəsinə gələn şagirdlərə münasibətdə də qaydalar eyni şəkildə tətbiq edilir, məktəbli geyimində vahidliyin qorunmasına xidmət edir.

Məqsədimiz hər bir təhsilalanın — qız və oğlanların da məktəb həyatında fəal iştirakını, təhsilə davamlı marağını və məsuliyyət hissini təşviq etməkdir. Qaydalar da hər kəs üçün eynidir və bu amala xidmət edir, hansısa geyim komponentinin qadağasına yönəlməyib.

Burada vacib məqamlardan biri odur ki, vahid geyim qaydalarını yalnız qızların geyimi məsələsi ilə əlaqələndirmək düzgün deyil. Müəyyən edilmiş tələblər həm qızlara, həm də oğlanlara aiddir. Oğlanların da məktəb mühitinə uyğun olmayan geyimləri, eləcə də digər uyğun olmayan geyim elementləri bu yanaşmanın əhatə dairəsindədir. Əsas məsələ konkret geyim elementini müzakirə etmək deyil, bütün şagirdlər üçün vahid tələblərin tətbiqini təmin etməkdir.

Hesab edirik ki, bu müzakirələrin içində bir böyük həqiqət unudulmamalıdır – uşaqlarınızın təhsil alması onların gələcək həyatı, cəmiyyətimizin inkişafı üçün çox vacibdir. Təhsilli uşaqlar yalnız öz gələcəklərini deyil, həm də gələcək nəsillərin dünyagörüşünü, ailələrin rifahını və bütövlükdə cəmiyyətin inkişafını istiqamətləndirirlər.

ŞANLI ZƏFƏRİN İŞIĞINDA

Zəfər abidəsi ziyarət edilib




Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi 8 Noyabr — Zəfər Günü münasibətilə Zəfər parkını ziyarət ediblər.

Ziyarət zamanı Zəfər abidəsinin önünə gül dəstələri qoyulub, Azərbaycanın ərazi bütövlüyünün bərpası və dövlətimizin suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Təhsil sağlam, bilikli və vətənpərvər nəslin yetişdirilməsində, ölkənin gələcək inkişafında mühüm rol oynayır

Firudin Qurbanov nazirliyin tabeliyindəki qurumların Vətən müharibəsi iştirakçısı olan əməkdaşları ilə görüşüb







Noyabrın 6-da elm və təhsil nazirinin müavini Firudin Qurbanov 8 Noyabr — Zəfər Gününün altıncı ildönümü münasibətilə Elm və Təhsil Nazirliyinin tabeliyindəki qurumlarda çalışan Vətən müharibəsi iştirakçısı və qazisi olan əməkdaşlarla görüşüb.

Görüşdə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Xüsusi təhsil sektorunun müdiri, Vətən müharibəsi iştirakçısı Anar Xələfov, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin Xaricdə təhsil sektorunun müdiri, Vətən müharibəsi iştirakçısı Niftalı Qasımlı və həmin sektorun əməkdaşı, Vətən müharibəsi iştirakçısı Cavidan Gözəlov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşə təhsilinin keyfiyyətinə nəzarət şöbəsinin əməkdaşı, Vətən müharibəsi iştirakçısı Elsevər Salayev, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin Layihələrin idarəolunması və dəstək şöbəsinin əməkdaşı, Vətən müharibəsi iştirakçısı və qazisi Ayaz Əfəndiyev, Təhsil Tələbə Krediti Fondunun əməkdaşı, antiterror əməliyyatının iştirakçısı Novruz İsmayılov iştirak ediblər.

Görüşdə nazir müavini Firudin Qurbanov 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti, ölkənin iqtisadi potensialının gücləndirilməsi, ordunun müasir texnologiyalarla təchiz edilməsi, xalqımızın birliyi və hərbçilərimizin qəhrəmanlığı sayəsində mümkün olduğunu bildirib. O, Vətən müharibəsində iştirak edən əməkdaşların göstərdikləri şücaət və fədakarlığı yüksək qiymətləndirərək onların şərəfli tariximizin bir parçası olduğunu vurğulayıb.

Nazir müavini Azərbaycanın daha da güclənməsi və müasir çağırışlara hazır olması baxımından süni intellekt və innovasiyaların imkanlarından səmərəli istifadənin, gənclərin gələcəyin tələblərinə uyğun hazırlanmasının əhəmiyyətini vurğulayıb, təhsilin sağlam, bilikli və vətənpərvər nəslin yetişdirilməsində, ölkənin gələcək inkişafında mühüm rol oynadığını bildirib.

Nazir müavini çıxışının sonunda Vətənin müdafiəsində iştirak edən əməkdaşlara bir daha təşəkkürünü bildirib.

Görüş zamanı müharibə iştirakçılarının keçdikləri döyüş yolu, xatirələri və müharibədən sonrakı fəaliyyətləri barədə fikirləri dinlənilib, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Vətən müharibəsi iştirakçılarına göstərdikləri qəhrəmanlığa və ölkəmizin ərazi bütövlüyü uğrunda xidmətlərinə görə təşəkkür bildirilib, onlara fəaliyyətlərində uğurlar arzulanıb.

Mərziyyə KAZIMZADƏ

“Tarixi yaşatmaq üçün onu gələcək nəsillərə ötürmək lazımdır”

Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov



Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Zaur Hüseynov “Məktəbdə...” layihəsinin qonağı olub.

Sonda lisey şagirdlərinin müəllifliyi ilə hazırlanan Vətən şəhidlərinə həsr olunmuş 3 cildlik “Qarabağ sizsiz” kitabı qonağa hədiyyə edilib. Qeyd edək ki, “Məktəbdə…” layihəsinin əsas məqsədi şagirdlərdə mənəvi-əxlaqi dəyərlərə hörmət və mütaliəyə marağı artırmaq, vaxtın düzgün idarə olunması, sosial şəbəkələrə aludəçiliyin aradan qaldırılması və mövcud imkanlardan səmərəli istifadə yollarını təbliğ etməkdən ibarətdir. Layihənin informasiya dəstəyi “Kaspi” qəzeti və Kaspi.az saytıdır. Görüşü Təhsil TV də işıqlandırır.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan layihənin budəfəki görüşü Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyində keçirilib.

Görüş zamanı Zaur Hüseynov şagirdlərə məktəb illəri, gələcək peşə seçimi, hərbi xidmət və döyüş yolu barədə danışıb, həyat təcrübəsini məktəblilərlə bölüşüb, qarşıya qoyulan məqsədlərə çatmaqda təhsilin, intizamın və əzmkarlığın rolundan bəhs edib.

Qonaq, həmçinin Vətən müharibəsi ilə bağlı yaddaşında silinməz izlər buraxan hadisələr barədə xatirələrini bölüşüb. 30 illik həsrətdən sonra Şuşaya ayaq basmağın, bu qədim şəhərin azadlığı uğrunda döyüşənlərdən biri olmağın yaratdığı hisslərdən söz açıb. Z.Hüseynov zəfərin bir döyüşçü üçün anlamı, müharibə dövründə arxa cəbhədə nümayiş etdirilən həmrəylik, xalq və ordu birliyinin əhəmiyyəti barədə fikirlərini bildirib.

Vətən Müharibəsi Qəhrəmanı məktəblilərlə bu cür görüşlərin keçirilməsinin əhəmiyyətinə də toxunub. Qeyd edib ki, belə görüşlər milli yaddaşın təzələnməsi, tarixin yaşadılması və Vətən müharibəsində yaşananların gənc nəslə birbaşa şahidlərin dilindən çatdırılması baxımından xüsusi önəm daşımaqla bərabər, həm də onların Vətənə bağlılıq hissinin, milli şüurunun və tarixi məsuliyyət anlayışının formalaşmasına töhfə verir.

Səmimi ünsiyyət şəraitində keçən görüşdə Z.Hüseynov uşaqlara təhsil almağın, daim bilik və bacarıqlarını inkişaf etdirməyin, milli-mənəvi dəyərlərə bağlı olmağın vacibliyi barədə tövsiyələr verib, məktəbliləri maraqlandıran sualları cavablandırıb.



Zəfərdən əbədiyyətə qəhrəmanlıq yolu



Bakı şəhəri 49 nömrəli “İntellekt” məktəb-liseyində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə məktəb rəhbərliyi, müəllimlər, şagirdlər, şəhid ailələrinin üzvləri və qonaqlar iştirak ediblər. Tədbirdə məktəbin direktoru Elza Bağırzadə çıxış edərək Zəfər Gününün xalqımızın tarixindəki müstəsna əhəmiyyətindən söz açıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin əsas məramlarından biri məktəbdə 16 sinfə şəhidlərimizin adlarının verilməsi olub. Bu təşəbbüs qəhrəmanlarımızın adlarının yaşadılması, onların göstərdikləri şücaətin gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.



Proqram çərçivəsində şagirdlər məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Elçin Manafovun şəhidlərin əziz xatirəsinə ithaf etdiyi şeirlərini səsləndirib, hər bir qəhrəmanın həyat yolunu və Vətən uğrunda göstərdiyi fədakarlığı öz ifalarında canlandırıblar. Şeirlərin təqdimatı zamanı şəhidlərin həyat və döyüş yolunu əks etdirən slaydlar nümayiş olunub. Səsləndirilən musiqilər, təqdim olunan videoçarxlar və bədii kompozisiyalar tədbirə xüsusi ab-hava qatıb.

Məktəbin təşkilatçı müavini Sevinc Əhmədoğlu çıxışında belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən, şəhidlərimizin xatirəsinin yaşadılmasının gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə verdiyi töhfədən bəhs edib.

Tədbirin ən təsirli anlarından biri isə məktəbin adını daşıdığı şəhid Rəfail Hüseynovun atası Maarif Hüseynovun çıxışı olub. O, şəhid ailəsi olaraq göstərilən diqqət və ehtirama görə minnətdarlığını ifadə edib. Bir neçə şəhid ailəsi üzvünün və qazilərin də çıxışları tədbir iştirakçıları tərəfindən diqqətlə dinlənilib. Bu çıxışlar bir daha göstərib ki, şəhidlərimizin xatirəsi yalnız ailələrinin deyil, bütövlükdə xalqımızın qəlbində yaşayır. Tədbirin sonunda şəhidlərimizin qəhrəmanlığının heç vaxt unudulmayacağı, onların adlarının gələcək nəsillər üçün daim örnək olacağı vurğulanıb. Zəfər xalqın birliyinin, şəhidlik isə Vətən sevgisinin ən ali ifadəsidir. Bu gün məktəb siniflərində şəhidlərimizin adlarının yaşadılması, onların həyat və mübarizə yolunun şagirdlərə aşılanması gələcək nəsillərin milli ruhda formalaşmasına xidmət edir.

Şəhidlərimizin əziz xatirəsi daim yaşayacaq, onların bizə əmanət etdiyi Vətən sevgisi nəsildən-nəslə ötürüləcəkdir!

Elçin MANAFOV,
Bakı şəhəri 49 nömrəli “İntellekt” məktəb-liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi

Apellyasiya Şurasının növbəti iclası keçirilib

Noyabrın 6-da elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Sənədlərlə və müraciətlərlə iş sektorunun məsləhətçisi vəzifəsinə namizəd Elçin Bayramovun, Lamiyə Hüseynovanın və Mənsurə Şiriyevanın, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qazax-Tovuz Regional Təhsil İdarəsinin Ağstafa rayonu üzrə təhsil sektorunun baş məsləhətçisi və Mərkəzi Aran Regional Təhsil İdarəsinin İnzibati təşkilat sektorunun baş məsləhətçisi vəzifələrinə namizəd Züleyxa Zəkilinin şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 2 şikayətin təmin edilməsi, 2 şikayətin qismən təmin edilməsi və 1 şikayətin təmin edilməməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

“Peşə öyrən, gələcəyini qur!”

Peşə təhsili müəssisələri “PeşəFest”də təmsil olunublar

Noyabrın 6-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən “Peşə-Fest-2026” layihəsinin yekun tədbiri baş tutub. “Peşə öyrən, gələcəyini qur!” devizi ilə təşkil olunan festival gəncləri və valideynləri əmək bazarında aktual olan peşələr barədə məlumatlandırmaq və gənclərin peşə seçiminə, karyera istiqamətində doğru addım atmalarına dəstək olmaq məqsədi daşıyıb.







Tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Hasil Abbasov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı, millət vəkilləri Zahid Oruc və Vüqar İskəndərov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvləri, təhsil müəssisələri və vətəndaş cəmiyyətinin nümayəndələri, yeniyetmə və gənclər iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev çıxışında gənclərin düzgün peşə seçiminə dəstək məqsədi daşıyan “PeşəFest” layihəsi üzrə builki tədbirlərdə 176 minə yaxın iştirakçının peşələrlə yaxından tanış olduğunu, mütəxəssislərlə ünsiyyət qurduğunu bildirib. O, festivalın peşəyönümü xidmətlərinin regionlarda əlçatanlığının artırılmasına töhfə verdiyini, bu tədbirlər çərçivəsində 6 min nəfərə peşəyönümü məsləhət xidməti göstərildiyini, gənclərə karyera planlaması üzrə fərdi konsultasiyalar keçirildiyini deyib.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə peşə təhsilinin inkişafı istiqamətində görülən işlər, regionlarda yeni təhsil müəssisələrinin yaradılması, tədris imkanlarının genişləndirilməsi və gənclərin əmək bazarının tələblərinə uyğun hazırlanması barədə danışıb. Qeyd edib ki, son illərdə peşə təhsilinə marağın artması bu sahədə həyata keçirilən islahatların və yaradılan imkanların nəticəsidir. Nazir müavini peşə təhsilinin gənclərin məşğulluğunun təmin olunmasında, onların peşəkar bacarıqlarının inkişafında və iqtisadiyyatın ixtisaslı kadrlara olan tələbatının ödənilməsində mühüm rolunu vurğulayıb. Gəncləri bu sahədə yaradılan imkanlardan yararlanmağa və gələcək karyeralarını düzgün planlaşdırmağa çağırıb.

Milli Məclisin deputatı, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc gənclərin peşə seçimində müəllimlərin, alimlərin, ziyalıların və cəmiyyətin nüfuzlu şəxslərinin roluna diqqət çəkib. “PeşəFest” kimi festivalların gənclərin müxtəlif peşələrlə tanış olması və gələcək istiqamətlərini müəyyənləşdirməsi baxımından əhəmiyyətini vurğulayıb.

Festivalda Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Dəmir yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi təmsil olunub. Tədbir çərçivəsində mühəndis-pedaqoji heyət və tələbələr peşə təhsili müəssisələrinin məhsullarını sərgidə ziyarətçilərə nümayiş etdirib. Festivalda peşəkarlar öz ixtisaslarına uyğun təqdimatlarla çıxış edib, təmsil etdikləri peşələrin xüsusiyyətlərini diqqətə çatdırıblar.

“PeşəFest-2026”da əmək bazarında xüsusi aktuallıq kəsb edən 11 peşə və ixtisas üzrə maarifləndirici tədbirlər təşkil olunub. Bunlar barista, bərbər, tibb bacısı/tibb qardaşı, dənizçi, əşyaların interneti (ağıllı texnologiyaların internet vasitəsi ilə məlumat mübadiləsi - IoT) üzrə mütəxəssis, uçuş mühəndisi, geyim üzrə dizayner, silah mühəndisi, SƏTƏM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) mütəxəssisi, kibertəhlükəsizlik mütəxəssisi və UI/UX dizayner (sayt, tətbiq dizayneri) istiqamətləridir.

İştirakçılar festivala qatılmaqla karyera və peşə seçimləri, əmək bazarında tələb olunan bacarıqlar, peşə təhsili müəssisələri və tədris proqramları barədə faydalı məlumatlar əldə etmək, mütəxəssislərlə ünsiyyət qurmaq imkanı qazanıblar.

Qeyd edək ki, ölkənin müxtəlif regionlarında keçirilmiş silsilə festival tədbirlərində 11 peşə təhsili müəssisəsi - Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Quba Peşə Liseyi, Qax Peşə Liseyi, Mingəçevir Peşə Məktəbi, Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi, Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz Dövlət Peşə Təhsil Mərkəzi, Bərdə Dövlət Peşə Təhsil Mərkəzi, Saatlı Peşə Liseyi və Masallı Peşə Məktəbi uğurla təmsil olunub.

İƏT üzv dövlətləri ilə təhsil və elm sahələrində mövcud tərəfdaşlıqların genişləndirilməsi regionda insan kapitalının inkişafına töhfə verəcək



Nazir müavini İdris İsayev İƏT Təhsil İnstitutunun Himayəçilər Şurasının 5-ci iclasında iştirak edib

Noyabrın 6-da İqtisadi Əməkdaşlıq Təşkilatının Təhsil İnstitutunun Himayəçilər Şurasının 5-ci iclası onlayn formatda keçirilib. İclasda elm və təhsil nazirinin müavini İdris İsayev iştirak edib.

Türkiyə Respublikasının Milli Təhsil Nazirliyinin sədrliyi ilə keçirilən iclasda milli təhsil naziri Yusuf Tekin, İƏT Təhsil İnstitutunun prezidenti Prof. Dr. Mehmet Akif Kireçci, İƏT-in Baş katibi Dr. Asad M. Khan, həmçinin İƏT-ə üzv və müşahidəçi dövlətlərin müvafiq təhsil nazirliklərinin yüksəkvəzifəli nümayəndələri iştirak ediblər.

İclas zamanı İƏT Təhsil İnstitutunun 2023—2026-cı illər üzrə fəaliyyətinə dair hesabat təqdim edilib, habelə 2027—2030-cu illər üzrə Fəaliyyət Planı nəzərdən keçirilib. Bununla yanaşı, İnstitutun gələcək inkişaf istiqamətləri, təhsil sahəsində regional əməkdaşlığın genişləndirilməsi, akademik mobilliyin təşviqi, bilik və təcrübə mübadiləsinin gücləndirilməsi, həmçinin üzv dövlətlər arasında birgə layihələrin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

İclasda çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev təhsil və elm sahələrində regional əməkdaşlığın genişləndirilməsinin, üzv dövlətlər arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinin və birgə təşəbbüslərin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Nazir müavini Azərbaycanda insan kapitalının inkişafı, təhsil sisteminin rəqəmsal transformasiyası, ali təhsilin beynəlmiləlləşdirilməsi və universitetlərin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində görülən işlər barədə məlumat verib. Bu çərçivədə STEAM və “Rəqəmsal bacarıqlar” layihələri, akademik mobilliyin təşviqi, beynəlxalq birgə təhsil proqramlarının inkişafı, universitet-sənaye əməkdaşlığının gücləndirilməsi, eləcə də elm, texnologiya və innovasiya sahələrində həyata keçirilən təşəbbüslər diqqətə çatdırılıb.


İdris İsayev İƏT üzv dövlətləri ilə təhsil və elm sahələrində mövcud tərəfdaşlıqların genişləndirilməsinin, birgə təhsil və elmi-tədqiqat layihələrinin həyata keçirilməsinin, habelə bilik və qabaqcıl təcrübə mübadiləsinin regionda insan kapitalının inkişafına və təhsil sistemlərinin rəqabətqabiliyyətliliyinin artırılmasına töhfə verəcəyini bildirib.

İƏT Təhsil İnstitutunun Himayəçilər Şurasının 5-ci iclasında İnstitutun prezidenti və digər idarəetmə orqanlarına seçkilər keçirilib.

Seçkilərin nəticələrinə əsasən, professor Mehmet Akif Kireçci növbəti müddətə İƏT Təhsil İnstitutunun prezidenti seçilib.

Qeyd edək ki, İƏT Təhsil İnstitutunun Himayəçilər Şurasının üç ildən bir keçirilən növbəti iclasının 2030-cu ildə təşkil olunması nəzərdə tutulur.

Şamaxıda təhsil müəssisələrinin fəaliyyəti ilə tanışlıq olub







Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli noyabrın 6-da Şamaxı rayonuna səfəri çərçivəsində bir sıra təhsil müəssisələrinə baş çəkərək burada yaradılmış tədris şəraiti və təhsil prosesinin təşkili ilə maraqlanıb.

Səfər çərçivəsində Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədovla ilk olaraq Şamaxı Avropa Liseyinin yeni binasına baxış keçirilib. Liseydə yaradılmış müasir tədris mühiti, təhsilalanlar üçün nəzərdə tutulan imkanlar və tədris prosesinin təşkili ilə tanışlıq olub.

Daha sonra Mətin Kərimli Şamaxı Dövlət Regional Kollecində tələbə və müəllim heyəti ilə görüşüb. Görüş zamanı kollecdə tədrisin təşkili, mövcud təhsil şəraiti və təhsilalanların peşəkar bilik və bacarıqlarının inkişafı üçün yaradılan imkanlarla tanış olub, tələbə və müəllimlərin fikirlərini dinləyib. Aparat rəhbəri tələbələrlə söhbət zamanı seçdikləri ixtisas üzrə bilik və bacarıqların artırılmasının, əmək bazarının tələblərinə uyğun kompetensiyaların formalaşdırılmasının və gələcək karyera hədəflərinin düzgün müəyyənləşdirilməsinin əhəmiyyətini vurğulayıb.

Mətin Kərimli həmçinin Şamaxı Peşə Liseyində olub. Burada tədris mühiti, emalatxanalar və praktiki məşğələlərin təşkili ilə tanış olub, tələbə və müəllimlərlə görüşərək onların fəaliyyəti ilə maraqlanıb. Görüş zamanı tələbələrə ixtisas hazırlığının əhəmiyyəti, əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların formalaşdırılması barədə məlumat verilib. Eyni zamanda, xaricdə təhsil proqramları və yaratdığı imkanlar haqqında danışılıb, tələbələrin gələcək təhsil və karyera planlaması ilə bağlı sualları cavablandırılıb.

Səfər çərçivəsində Aparat rəhbəri Avaxıl kənd tam orta ümumtəhsil məktəbində də olub. Mətin Kərimli məktəbdə yaradılmış tədris şəraiti ilə tanış olduqdan sonra müəllimlərlə görüşüb. Görüşdə müəllimlərin peşəkar inkişafı, ixtisasartırma imkanları və davamlı təlimin tədrisin keyfiyyətinin yüksəldilməsində rolu müzakirə olunub. Aparat rəhbəri müəllimləri mövcud ixtisasartırma və peşəkar inkişaf imkanlarından fəal yararlanmağa, bilik və bacarıqlarını mütəmadi olaraq təkmilləşdirməyə təşviq edib.

ZƏFƏRDƏN QAYIDIŞA:

Qarabağda milli təhsil quruculuğu

Xalqımızın taleyində mühüm dönüş yaradan hadisələrdən biri 8 Noyabr — Zəfər Günüdür. Bu gün milli birliyimizin, dövlətimizin gücünün və Silahlı Qüvvələrimizin qəhrəmanlığının rəmzidir. Eyni zamanda, Zəfər Günü ədalətin və beynəlxalq hüququn bərpasını ifadə edən əlamətdar tarixdir. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri oldu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu böyük qəhrəmanlıq və peşəkarlıq göstərərək torpaqlarımızı işğaldan azad etdi. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi Zəfərin qazanılması ilə nəticələndi. 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Beləliklə, 2020-ci ildə qazanılan qələbə 2023-cü ildə suverenliyimizin tam bərpası ilə daha böyük tarixi məna qazandı. Zəfərin əhəmiyyəti yalnız torpaqlarımızın işğaldan azad edilməsi ilə məhdudlaşmır. Bu, həmçinin dövlətimizin suverenliyinin möhkəmlənməsi, milli ləyaqətimizin və tarixi ədalətin bərpası, xalqımızın öz gücünə inamının artması baxımından böyük əhəmiyyət daşıyır. Tarixi Zəfər bir daha göstərdi ki, milli məqsədlər ətrafında birləşən, güclü dövlətə və qüdrətli orduya malik olan xalq ən çətin sınaqlardan uğurla çıxa bilər. Bu şanlı Zəfərin arxasında şəhidlərimizin canı, qazilərimizin sağlamlığı, əsgər və zabitlərimizin qəhrəmanlığı, Azərbaycan xalqının birliyi dayanır. Buna görə də Zəfər Günü hər bir azərbaycanlı üçün həm qürur, həm minnətdarlıq, həm də məsuliyyət günüdür. Şəhidlərimizin xatirəsini yaşatmaq, qazilərimizə ehtiram göstərmək və onların uğrunda mübarizə apardıqları Vətənin inkişafına töhfə vermək hər birimizin mənəvi borcudur.



Qarabağ Universitetinin rektoru Şahin Bayramovun “Xalq qəzeti”ndə dərc olunan məqaləsini təqdim edirik:

Böyük Qayıdışın zəka cəbhəsi

Tarixi Zəfər qarşıda yeni vəzifələr müəyyənləşdirdi. Yeni mərhələdə işğaldan azad edilmiş ərazilərin bərpası, iqtisadi potensialının reallaşdırılması, infrastrukturun yenidən qurulması, əhalinin doğma yurdlarına qayıdışının təmin edilməsi və bölgədə dayanıqlı həyatın formalaşdırılması istiqamətində genişmiqyaslı fəaliyyətlərə başlanıldı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış Proqramı Qarabağ və Şərqi Zəngəzurda yeni inkişaf mərhələsinin əsasını qoydu. Yolların, tunellərin, körpülərin və hava limanlarının tikintisi, enerji və kommunikasiya infrastrukturunun yaradılması, yaşayış məntəqələrinin yenidən qurulması, məktəblərin, xəstəxanaların və digər sosial obyektlərin istifadəyə verilməsi bu prosesin əsas istiqamətləridir.

Görülən işlər yalnız dağıdılmış infrastrukturun bərpası ilə məhdudlaşmır. Qarabağ və Şərqi Zəngəzur müasir şəhərsalma prinsipləri, yeni texnologiyalar, yaşıl enerji və rəqəmsal həllər əsasında inkişaf etdirilir. Başqa sözlə, bu ərazilərdə təkcə keçmişin dağıntıları aradan qaldırılmır, həm də gələcək üçün yeni iqtisadi və sosial inkişaf modeli qurulur.

Bu prosesdə təhsil və elm xüsusi əhəmiyyət daşıyır. Çünki quruculuq işlərinin uzunmüddətli uğuru yalnız yolların, binaların və digər infrastruktur obyektlərinin yaradılmasından deyil, həm də bu imkanları idarə edə və inkişaf etdirə bilən insan kapitalından asılıdır. Regionun iqtisadiyyatının şaxələndirilməsi, yeni texnologiyaların tətbiqi, sahibkarlığın inkişafı, sosial xidmətlərin yaxşılaşdırılması və innovasiya mühitinin formalaşdırılması bilikli və peşəkar mütəxəssislər tələb edir. Bu reallıq Qarabağda müasir ali təhsil və elmi-tədqiqat mühitinin formalaşdırılmasını və inkişafını strateji zərurətə çevirir.

Zəfərin açdığı yollar

Hərbi və diplomatik müstəvidə qazanılmış tarixi Zəfər hazırda iqtisadiyyat, elm, texnologiya, mədəniyyət və sosial sahələrdə yeni uğurlarla möhkəmləndirilir. Bu baxımdan, elm və təhsil milli inkişafın əsas amilləri kimi xüsusi əhəmiyyət daşıyır. Müasir dünyada dövlətlərin rəqabət qabiliyyəti yalnız təbii resurslarla deyil, daha çox insan kapitalının keyfiyyəti, elmi potensialı, texnoloji imkanları və innovasiya bacarığı ilə müəyyən olunur. Süni intellekt, rəqəmsal transformasiya, yaşıl enerji, biotexnologiya, mühəndislik və digər qabaqcıl sahələrdə əldə olunan nailiyyətlər ölkələrin gələcəyinə birbaşa təsir göstərir.

Bu qlobal çağırışlar fonunda Qarabağ Universitetinin yaradılması tarixi Zəfərdən sonra ölkəmizdə həyata keçirilən quruculuq və inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə yaradılan Qarabağ Universiteti ölkəmizin ali təhsil sistemində yeni mərhələnin başlanğıcını qoydu. Universitet yalnız ali təhsil müəssisəsi kimi deyil, həm də Zəfərdən sonra bölgədə başlayan yeni həyatın, inkişafın və intellektual dirçəlişin mühüm mərkəzlərindən biri kimi yaradılmışdır. Onun məhz tarixi Zəfərin əldə olunduğu və ölkəmizin suverenliyinin bərpa edildiyi ərazidə fəaliyyət göstərməsi rəmzi əhəmiyyət daşıyır və universitetin missiyasına xüsusi tarixi və mənəvi məna verir. Bir vaxtlar işğalın və dağıntıların yaşandığı bu torpaqlarda bu gün müasir auditoriyaların, laboratoriyaların, kitabxanaların və tələbə həyatının formalaşması Zəfərin yaratdığı yeni reallığın aydın göstəricisidir.

2024-cü il sentyabrın 20-də Prezident İlham Əliyevin iştirakı ilə Qarabağ Universitetinin Xankəndi şəhərində açılışı ölkəmizin həyatında mühüm hadisə oldu. Bu hadisə dövlətimizin Qarabağın gələcəyinə, bölgənin intellektual potensialına və gənclərin inkişafına verdiyi strateji əhəmiyyətin əyani ifadəsi idi. Universitetin yaradılması bir daha göstərdi ki, tarixi Zəfərin davamı azad edilmiş ərazilərdə müasir təhsil, elm, mədəniyyət, iqtisadiyyat və sosial həyatın qurulmasından keçir. Bu baxımdan, əsas məqsədlərimizdən biri gəncləri bilikli, bacarıqlı və rəqabətqabiliyyətli mütəxəssislər kimi yetişdirməkdir.

Qarabağ Universiteti Böyük Qayıdışın təhsil sahəsindəki mühüm dayaqlarından biri olmaqla yanaşı, bölgənin intellektual, sosial və mədəni inkişafına da töhfə verir. Universitetin fəaliyyəti Xankəndinin və bütövlükdə, Qarabağın müasir bilik və innovasiya mərkəzinə çevrilməsinə xidmət edir. Qarşımızda duran əsas vəzifə universiteti yeni biliklərin yaradıldığı, yüksək ixtisaslı mütəxəssislərin hazırlandığı və ölkəmizin intellektual potensialının gücləndirildiyi müasir ali təhsil müəssisəsi kimi inkişaf etdirməkdir.

Bu böyük missiyanın həyata keçirilməsi universitetin bütün akademik və inzibati heyətinin, eləcə də tələbələrinin birgə fəaliyyətini tələb edir. Tələbələrimiz öyrənmə, tədqiqat və yaradıcılıq fəaliyyəti ilə, professor-müəllim heyətimiz keyfiyyətli tədris və elmi araşdırmalarla, inzibati və texniki heyətimiz isə universitetin fəaliyyətinin səmərəli təşkili ilə ümumi məqsədə töhfə verir. Biz universitetin hər bir tələbə və əməkdaşını bu missiyanın mühüm iştirakçısı hesab edirik.

Eyni zamanda, bu missiyanın uğurla həyata keçirilməsində dövlətimizin dəstəyi, tərəfdaş qurumların, işəgötürənlərin, yerli və xarici universitetlərin birgə fəaliyyəti mühüm rol oynayır. Qarabağ Universitetinin inkişafını yalnız bir ali təhsil müəssisəsinin tərəqqisi kimi deyil, bütövlükdə, Qarabağda yeni intellektual və sosial mühitin formalaşmasına, regionun davamlı inkişafına xidmət edən strateji proses kimi qiymətləndiririk.

Zəfər nəslinin intellektual gələcəyi

Qarabağ Universitetinin əsas xüsusiyyətlərindən biri onun tarixi Zəfəri yaşamış, bu qələbənin yaratdığı yeni reallıqda formalaşan gənclər üçün fəaliyyət göstərməsidir. Universitetin tələbələri müstəqil və suveren Azərbaycanın gəncləridir. Onlar torpaqlarımızın işğaldan azad olunmasının sevincini yaşamış, milli birliyimizin və dövlətimizin gücünün tarixi nəticələrinə şahidlik etmiş bir nəslin nümayəndələridir.

Bu gənclər üçün Qarabağ yalnız coğrafi məkan deyil. Qarabağ onların milli kimliyinin, mənəvi dəyərlərinin, tarixi yaddaşının və gələcəklə bağlı arzularının bir hissəsidir.



Xankəndidə təhsil almaq və Qarabağ Universitetinin tələbəsi olmaq onlara keyfiyyətli ali təhsil əldə etmək imkanı verməklə yanaşı, bölgənin gələcək inkişafında iştirak etmək məsuliyyəti də aşılayır.

Universitetdə formalaşan tələbə mühiti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Müxtəlif bölgələrdən gələn gənclər burada eyni məqsəd ətrafında birləşir, bilik və təcrübə qazanır, dostluq münasibətləri qurur, fərqli düşüncə və dünyagörüşləri ilə tanış olurlar. Dövlət hesabına yaşayış şəraiti ilə təmin olunan tələbələrimiz üçün yaradılan sosial və akademik imkanlar onların təhsilə və şəxsi inkişafa daha çox diqqət ayırmasına şərait yaradır.

Biz tələbələrimizi yalnız gələcəkdə müəyyən peşəyə yiyələnəcək gənclər kimi deyil, Qarabağın inkişafında, Azərbaycanın elmi və iqtisadi potensialının güclənməsində iştirak edəcək əsas insan resursu kimi görürük. Buna görə də universitetdə yalnız ixtisas biliklərinin öyrədilməsinə deyil, tələbələrin tənqidi və analitik düşünmə, yaradıcı yanaşma, komanda ilə işləmək, təşəbbüskarlıq, liderlik və sosial məsuliyyət bacarıqlarının inkişafına da xüsusi diqqət yetirilir.

Qarabağın ilk universiteti

Qarabağ Universitetinin əsas vəzifələrindən biri müasir biliklərə malik mütəxəssislər hazırlamaqla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafına elmi və intellektual töhfə verməkdir. Universitetin təhsil, elmi-tədqiqat və innovasiya fəaliyyəti də bu məqsədə xidmət edir.

Bu istiqamətdə universitetdə müxtəlif elm və təhsil sahələri üzrə akademik fəaliyyət genişləndirilir. Mühəndislik, informasiya texnologiyaları, riyaziyyat, təbiət elmləri, biznes, iqtisadiyyat, turizm, humanitar və sosial elmlər, pedaqogika, incəsənət, tibb və sağlamlıq elmləri üzrə formalaşdırılan akademik potensial regionun inkişaf ehtiyacları ilə əlaqələndirilir.

Universitetin inkişafı üçün müasir maddi-texniki bazanın yaradılması da əsas prioritetlərdəndir. Tədris binaları, laboratoriyalar, kitabxana, tələbə yataqxanaları və digər akademik məkanlar universitetin gələcək fəaliyyətinin əsaslarını təşkil edir.

İnnovasiya və sahibkarlıq mühitinin inkişafı da universitetin mühüm fəaliyyət istiqamətlərindəndir. Tələbə və tədqiqatçıların ideyalarının praktik həllərə çevrilməsi, yeni texnologiyaların sınaqdan keçirilməsi, universitet, sənaye, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi üçün imkanlar yaradılır. Məqsədimiz universitetdə əldə olunan bilik və ideyaların yalnız akademik mühitdə qalması deyil, həm də real iqtisadi və sosial fayda yaratmasıdır.

Beynəlxalq və yerli əməkdaşlıq

Qarabağ Universitetində keyfiyyətli tədris, beynəlxalq təcrübənin tətbiqi və əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığı əsas prioritetlərdəndir. Universitetin inkişafı tələbəyönümlü təhsil, tədqiqat əsasında öyrənmə, praktiki bacarıqların inkişafı və beynəlxalq standartlara uyğun akademik mühitin yaradılması prinsiplərinə əsaslanır.

Bu istiqamətdə Türkiyənin İstanbul Texniki Universiteti ilə həyata keçirilən ikili diplom proqramı xüsusi əhəmiyyət daşıyır. Proqram çərçivəsində mühəndisliyin müxtəlif istiqamətləri üzrə tələbələrə beynəlxalq akademik təcrübəyə əsaslanan təhsil imkanları yaradılır. Bu layihə iki universitet arasında əməkdaşlıq olmaqla yanaşı, Qarabağda mühəndislik təhsilinin, elmi-tədqiqat imkanlarının və texnoloji biliklərin inkişafına xidmət edən mühüm təşəbbüsdür.

Beynəlmiləlləşmə siyasətimiz çərçivəsində xarici tələbə və müəllimlərin universitetə cəlb edilməsinə də diqqət yetirilir. Müxtəlif ölkələrdən olan tələbə və akademik heyətin universitetdə təmsil olunması beynəlxalq və çoxmədəniyyətli təhsil mühitinin formalaşmasına kömək edir. Xarici universitetlərlə əməkdaşlıq, beynəlxalq konfranslarda iştirak, birgə elmi layihələr və təcrübə mübadiləsi isə universitetin beynəlxalq akademik əlaqələrini genişləndirir.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla tamamlanması məqsədilə dövlət və özəl sektorla əməkdaşlığa da xüsusi önəm verilir. Müxtəlif qurumlarda təcrübə proqramları, birgə tədris təşəbbüsləri və tərəfdaşlıq layihələri tələbələrə real iş mühitini tanımaq, müasir texnologiyalardan istifadə etmək və əmək bazarına daha hazırlıqlı daxil olmaq imkanı yaradır.

Bu əməkdaşlıqların əsas məqsədi universitetlə əmək bazarı arasında əlaqələri gücləndirmək, tələbələrin peşəkar inkişafına dəstək vermək və əldə olunan biliklərin praktikada tətbiqini genişləndirməkdir. Hesab edirik ki, müasir universitet yalnız bilik verən deyil, həm də yeni bilik yaradan, innovativ ideyaları dəstəkləyən və cəmiyyətin inkişafına töhfə verən bir qurum olmalıdır.

Azad bölgənin tələbə dünyası

Qarabağ Universitetinin fəaliyyətinin ən mühüm nəticələrindən biri tələbələrimizin yerli və beynəlxalq platformalarda qazandıqları uğurlardır. Bu nailiyyətlər universitetdə formalaşan akademik mühitin, tələbələrimizin potensialının və onların öyrənməyə olan marağının göstəricisidir.

Tələbələrimizin TEKNOFEST çərçivəsində keçirilən sosial innovasiya yarışmasında üçüncü yerə layiq görülməsi, beynəlxalq ACCA sertifikatlaşdırma proqramında uğurlu nəticələr əldə etməsi və müxtəlif intellektual yarışlarda mükafatlar qazanması onların fərqli sahələrdə inkişaf etdiyini göstərir.

Bununla yanaşı, cari tədris ilində tələbələrimizin Beynəlxalq Astronavtika Konqresində iştirakı, ACM WomENcourage beynəlxalq konfransında mükafat qazanması, “Rebuild Garabagh” sərgisi çərçivəsində keçirilən hakatonda birinci yerə layiq görülməsi universitetimizin elmi, texnoloji və innovativ fəaliyyətinin yerli və beynəlxalq səviyyədə təmsil olunmasının nümunələridir.

Tələbələrimizin müasir texnologiyalar sahəsində qazandıqları uğurlar arasında “Holberton School Azerbaijan” ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən tədris proqramının nəticələri də xüsusi yer tutur. Proqramı uğurla başa vuran 50 tələbəmiz kompüter elmləri, tam proqram təminatının hazırlanması və Python proqramlaşdırma dili üzrə əldə etdiyi bilik və bacarıqları 13 praktiki layihənin hazırlanmasında tətbiq edib.

Tələbələrin öz ideyalarını işlək texnoloji həllərə çevirməsi, layihələrini təqdim etməsi və qarşılaşdıqları problemlərə yaradıcı yanaşması onların peşəkar inkişafı baxımından mühüm təcrübədir. Bu proqram bir daha göstərir ki, tədrisin praktiki fəaliyyətlə əlaqələndirilməsi, tələbələrin müasir texnologiyalara yiyələnməsi və yaradıcı düşüncəsinin inkişaf etdirilməsi gələcək uğurların əsas şərtlərindəndir. İnanırıq ki, tələbələrimizin proqramlaşdırma və rəqəmsal texnologiyalar sahəsində qazandıqları bilik və bacarıqlar gələcəkdə ölkəmizin texnoloji inkişafına, rəqəmsal transformasiyasına və innovasiya potensialının güclənməsinə töhfə verəcəkdir.

Qeyd etmək istərdim ki, bu uğurlar yalnız ayrı-ayrı tələbələrin fərdi nailiyyətləri deyil. Onlar Qarabağ Universitetində formalaşan yeni düşüncə tərzinin, təşəbbüskarlığın və sağlam intellektual rəqabət mühitinin göstəricisidir. Tələbələrimizin hər bir uğuru universitetin inkişafına və Qarabağın gələcəyinə qoyulan intellektual sərmayənin nəticəsidir.

Qarabağ Universitetinin tələbələrinin qarşılarında dayanan vəzifə yalnız şəxsi karyera qurmaqdan ibarət deyil. Onlar əldə etdikləri bilikləri ölkəmizin inkişafına, doğma bölgələrinin tərəqqisinə və cəmiyyətin rifahına yönəltməlidirlər. Zəfəri qazanan qəhrəman nəslin davamçıları kimi gənclərimiz bu şanlı qələbəmizi elm, təhsil, texnologiya, sahibkarlıq, mədəniyyət və digər sahələrdə yeni uğurlarla davam etdirməlidirlər.

Gələcək hədəflər

Bu gün Qarabağ Universiteti tarixi Zəfərin yaratdığı imkanlar və üzərimizə qoyduğu məsuliyyət əsasında gələcəyə doğru inamla irəliləyir. Qısa müddət ərzində universitetin akademik strukturunun genişləndirilməsi, yeni fakültə və ixtisasların yaradılması, tələbə sayının artması, müasir tədris və tədqiqat infrastrukturunun formalaşdırılması, beynəlxalq əməkdaşlığın inkişafı bu istiqamətdə görülən işlərin mühüm nəticələridir.

Hazırda universitetdə 9 fakültə üzrə 3300-dən çox tələbə təhsil alır. Tədris prosesinə 200-dən çox pedaqoji heyət üzvü cəlb olunub, universitetin ümumi əməkdaşlarının sayı isə 560 nəfəri ötüb. Bu göstəricilər Qarabağ Universitetinin qısa müddətdə əhəmiyyətli inkişaf yolu keçdiyini və regionda böyük akademik potensiala malik ali təhsil müəssisəsinə çevrildiyini göstərir.

Lakin bizim üçün bu rəqəmlər son məqsəd deyil, daha böyük hədəflərə doğru irəliləyişin göstəriciləridir. Qarşıdakı dövrdə tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi, beynəlxalq akademik əməkdaşlığın dərinləşdirilməsi, innovasiya və sahibkarlıq ekosisteminin inkişafı, tələbələrin hərtərəfli formalaşması və universitetin regionun sosial-iqtisadi inkişafında rolunun artırılması əsas prioritetlərimiz olaraq qalacaqdır.

Əminik ki, Qarabağ Universiteti zaman keçdikcə yalnız Azərbaycanın deyil, bütövlükdə, regionun tanınan elm, təhsil və innovasiya mərkəzlərindən birinə çevriləcəkdir. Universitetin auditoriyalarında yetişən gənclər gələcəkdə Qarabağın iqtisadiyyatında, elmi mühitində, dövlət idarəçiliyində, səhiyyəsində, mədəniyyətində və digər sahələrində mühüm rol oynayacaqlar. Onların uğurları Azərbaycanın Zəfərdən sonrakı inkişaf tarixinin yeni səhifələrində yer alacaqdır.

Beləliklə, 8 Noyabr — Zəfər Günü bizə yalnız qürur duymaq üçün deyil, həm də üzərimizə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirmək üçün böyük mənəvi güc verir. Şəhidlərimizin əziz xatirəsinə ən böyük ehtiramımız onların uğrunda canlarından keçdikləri Vətəni daha güclü, daha inkişaf etmiş və daha firavan görməkdir. Bu məqsədə çatmağın mühüm yollarından biri isə elm və təhsilin inkişafıdır. İnanırıq ki, Zəfərin qazanıldığı torpaqlarda bilik və elm əsasında qurulan gələcək Azərbaycanın davamlı inkişafına, Qarabağın intellektual dirçəlişinə və yeni nəsillərin uğurlarına mühüm töhfə verəcəkdir.

Şəki-Zaqatala regionunda təhsil işçiləri üçün antikorrupsiya mövzusunda təlim keçirilib



Elm və Təhsil Nazirliyi ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində Şəki-Zaqatala regionunda təhsil işçiləri üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Noyabrın 5-də baş tutan tədbir Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində təhsil işçilərinin məlumatlılığının artırılması, etik davranış prinsiplərinin təşviqi və korrupsiyaya qarşı davranışın formalaşdırılması məqsədilə təşkil olunub.

Tədbirdə Elm və Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin müdiri Kamran İsmayılov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev, Mərkəzin şöbə rəisi Nigar Qələndərli, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudova və Şəki rayon prokuroru Anar Nəsibov iştirak edib.

Çıxışlar zamanı Milli Fəaliyyət Planının korrupsiyaya qarşı mübarizədə strateji əhəmiyyəti, məqsəd və hədəfləri, icrasından əldə olunan müsbət nəticələr, eləcə də Elm və Təhsil Nazirliyi ilə Baş Prokurorluq arasında əməkdaşlığın mühüm rolu vurğulanıb. Həmçinin nazirlik tərəfindən həyata keçirilən maarifləndirmə tədbirlərinin nəticələri, təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması, dürüstlük və şəffaflıq prinsiplərinin təşviqi istiqamətində görülən işlər barədə məlumat verilib.

Təlim çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Kamil Kamilli, idarənin böyük prokuroru Ziya Hacıyev, Təşkilati və informasiya təminatı idarəsinin prokuroru İlkin Babazadə tərəfindən korrupsiyanın mahiyyəti və cəmiyyətə təsiri, təhsil sahəsində korrupsiya hüquqpozmalarına qarşı qabaqlayıcı tədbirlərin əhəmiyyəti və preventiv mexanizmlərin rolu diqqətə çatdırılıb. Həmçinin dövlət qulluqçularının etik davranış qaydaları və maraqlar toqquşmasının qarşısının alınması imkanları barədə məsələlərə toxunulub.

Tədbirin sonunda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

"Qırmızı Ürəklər"

Proqram çərçivəsində daha 20 tələbəyə təqaüd ayrılacaq



Təhsilin İnkişafı Fondu (TİF) və Qırmızı Ürəklər Fondu arasında "Qırmızı Ürəklər" Təhsil Təqaüd Proqramının davam etdirilməsinə dair müqavilə imzalanıb. Yeni mərhələdə daha 20 tələbəyə təqaüd ayrılması nəzərdə tutulur. Müqaviləni Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli və Qırmızı Ürəklər Fondunun prezidenti Yusif Poladov imzalayıblar.

Nicat Məmmədli əməkdaşlığın davam etdirilməsinin sosial həssas qrupa aid olan gənclərin təhsil imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Sədr bildirib ki, tələbələrə göstərilən maliyyə dəstəyi onların təhsillərini davam etdirmələrinə, bilik və bacarıqlarını inkişaf etdirmələrinə, gələcək hədəflərinə doğru inamla irəliləmələrinə şərait yaradır.

Yusif Poladov vətəndaşların təhsil sahəsinə göstərdiyi dəstəyin və sosial həmrəyliyin böyük əhəmiyyət daşıdığını vurğulayıb. O qeyd edib ki, Birbank tətbiqi vasitəsilə həyata keçirilən "Onu oxut" aksiyası çərçivəsində vətəndaşların etdiyi könüllü ianələr hesabına ərsəyə gələn bu kimi təşəbbüslər sosial həssas qrupa aid olan gənclərin ali təhsil imkanlarının genişləndirilməsinə və dövlətin bu istiqamətdə həyata keçirdiyi səylərə mühüm töhfə verir.

Proqram sosial həssas qrupa aid olan, Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin I kursunda təhsil alan və qəbul imtahanında minimum 600 bal toplayan tələbələri dəstəkləməyi hədəfləyir. Seçiləcək hər bir tələbəyə 10 ay müddətində aylıq 200 manat məbləğində təqaüd veriləcək.

Qeyd edək ki, Təhsilin İnkişafı Fondu və Qırmızı Ürəklər Fondunun əməkdaşlığı çərçivəsində bu günədək 43 tələbəyə təqaüd ayrılıb. Proqramın davam etdirilməsi sosial həssas qrupa aid olan gənclərin ali təhsil almasına və akademik inkişafına dəstəyin genişləndirilməsinə imkan yaradır.

PEŞƏ SEÇƏNDƏ...

"Kişi peşəsi" stereotipini qıran qızlar

Azərbaycan qadını üçün traktorun sükanı arxasında görünmək qətiyyən təəccüblü deyil. Traktorun sükanı arxasında böyük ad-san qazanan Sevil Qazıyevanın yolu bu gün də ənənəvi olaraq daha çox kişilərin üz tutduğu peşələri seçən qadınlara nümunədir. İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri Zəhra Əmirzadə və Ləman Məhərrəmova da bu yolu seçən gənc qadınlardandır. Zəhra kənd təsərrüfatı və inşaat texnikalarının istismarı, Ləman isə baytarlıq sahəsində bilik və bacarıqlarını artırır. Fərqli ixtisaslar üzrə təhsil alsalar da, hər ikisini bir məqsəd birləşdirir: sevdikləri peşəyə yiyələnmək, özlərini inkişaf etdirmək və gələcəkdə uğurlu mütəxəssis kimi yetişmək. Onların hekayəsi göstərir ki, peşə seçiminin cinsiyyətlə deyil, maraq, həvəs və bacarıqla əlaqəsi var.

"İstəyirəm ki, öz istixanalarım olsun"



İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi Zəhra Əmirzadə "Azərbaycan müəllimi"nə deyib ki, ixtisas seçimi zamanı kişilərə və qadınlara münasibətdə ayrı-seçkilik edilməməlidir: "Əsas odur ki, insan işini bacarsın. Düşünürəm ki, peşə seçimində cins fərq yaratmır. Bir peşəni seçmək üçün insanın qız və ya oğlan olması əsas deyil. Əsas olan maraq, həvəs və bacarıqdır".

O, gələcək planlarını yalnız bu ixtisasla məhdudlaşdırmır. Hazırda "Kənd təsərrüfatı və inşaat texnikalarının istismarı" ixtisası üzrə yüksək texniki peşə təhsili alan Zəhranın başqa sahələrdə də arzuları var:

"Mən bu peşəni seçdim, çünki özümü fərqli sahələrdə inkişaf etdirmək və yeni biliklər qazanmaq istəyirəm. Gələcəkdə yalnız bu ixtisas üzrə mütəxəssis kimi işləməyi deyil, həm də gülçülük və istixana sahəsində fəaliyyət göstərməyi düşünürəm. İstəyirəm ki, öz istixanalarım olsun, müxtəlif güllər və bitkilər yetişdirim, bu sahədə özümü inkişaf etdirim. İnanıram ki, bu ixtisas üzrə qazandığım biliklər gələcəkdə mənə kömək edəcək. Məqsədim öz peşəmi yaxşı öyrənmək, müstəqil olmaq və gələcəkdə öz işimi qurmaqdır. Buna görə də seçdiyim ixtisasın həm bu günüm, həm də gələcəyim üçün faydalı olacağını düşünürəm. Bu yolda istehsalat təlimi ustası Müşfiq Məmmədovun dəstəyinə arxalanıram. Hələlik həftə ərzində az görüşürük, amma istehsalat təlimlərində daha tez-tez olacağımız bildirilir. Əminəm ki, Müşfiq müəllimdən bu peşənin peşəkarı olmaq üçün ehtiyacım olan hər şeyi öyrənəcəyəm".

Atası hərbçi olduğu üçün tez-tez məktəb dəyişdiyini deyən Zəhra hazırda təhsilini İsmayıllıda davam etdirməyi problem hesab etmir:

"Xırdalanda 9 nömrəli, Göyçayda isə 3 nömrəli tam orta məktəbdə oxudum. Atam hərbçi olduğu üçün Xankəndinə getməli olduq. Burada 4 nömrəli tam orta məktəbin IX sinfini bitirdikdən sonra bu peşəyə yönəldim. İndi isə İsmayıllıdayam".

Kənd təsərrüfatı sahəsinə marağı olan Zəhra gələcəkdə bu istiqamətdə təhsilini davam etdirmək niyyətindədir:

"Burada təhsilimi başa vurduqdan sonra universitetdə oxumaq istəyirəm".

Anası da aqronom olan Zəhra kənd təsərrüfatı sahəsinə uşaqlıqdan maraq göstərdiyini deyir:

"Anam aqronom olsa da, mən də bu ixtisası özüm araşdırdım. İnternetdəki məlumatlardan ixtisasın perspektivli olduğunu öyrəndim. Valideynlərim də seçimimi dəstəkləyir, hər qərarımda yanımda olduqlarını bildirirlər".



"Çətinlik olur, lakin bu, mənim üçün maneə deyil"



"Baytar texniki" ixtisası üzrə təhsil alan Ləman Məhərrəmova da peşəsini sevərək seçib:

"Kənd təsərrüfatının və heyvandarlığın inkişafı həm də savadlı, təcrübəli baytar kadrlarından asılıdır. Buna görə də bu sahəyə üz tutdum. Xüsusilə İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin Qobustan korpusunu seçdim. Qobustan korpusu yeni olsa da, İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin bu istiqamətdə kadr hazırlığı təcrübəsinin burada da mühüm rol oynayacağını düşündüm".

Ləman tədrisin keyfiyyətindən razıdır: "Təhsil ocağında dərslər yüksək səviyyədə təşkil olunur".

Bakı şəhərinin Qaradağ rayonundakı Müşfiqabad qəsəbəsində yerləşən Etibar Şirəliyev adına 274 nömrəli tam orta məktəbdə tam orta təhsilini başa vuran Ləman baytar olmaq arzusundan danışıb:

"Hər zaman arzum olub. Bu gün isə aldığım təhsil məni həmin arzuya addım-addım yaxınlaşdırır. İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin Qobustan korpusunda əldə etdiyim bilik və bacarıqlar sayəsində gələcəkdə peşəkar mütəxəssis olacağıma və bu yolda uğur qazanacağıma inanıram".

Bakının Binəqədi rayonunda yaşayan Ləman hər gün bu arzusuna doğru irəliləmək üçün Qobustana gedib-gəlir:

"Çətinlik olur, lakin bu, mənim üçün maneə deyil".

Baytar olmaq arzusunda olan Ləman peşə təhsili üçün ixtisas seçərkən xeyli araşdırma apardığını deyir:

"Mən bu barədə çox araşdırma apardım. Müşahidələrimə əsasən deyə bilərəm ki, baytarlıq ixtisası həqiqətən də dərin bilik tələb edir. Bəzən bu biliklərə yiyələnməkdə çətinlik çəkirəm, amma heyvanları çox sevməyim bu ixtisasa daha məsuliyyətlə yanaşmağımda əsas rol oynayır. Burada əldə edəcəyim biliklər sayəsində heyvanların xəstələnməsinin qarşısını almağa və onların sağlamlığını qorumağa kömək edə biləcəyəm".



Ruhiyyə DAŞSALAHLI



Süni intellekt yeni peşələr yaradır

Müasir dövrdə mütəxəssislər üçün yeni imkanlar, köhnə peşələr üçün isə ciddi çağırışlar yaradan süni intellekt əmək bazarının strukturunu sürətlə dəyişir. Artıq yalnız informasiya texnologiyaları (IT) sahəsində deyil, tibb, hüquq, iqtisadiyyat, kənd təsərrüfatı və digər istiqamətlərdə də rəqəmsal biliklərə ehtiyac artır. Bəs yeni reallıqda IT ixtisasları üzrə təhsil alan tələbələr hansı istiqamətlərə üstünlük verməlidirlər? Süni intellekt hansı yeni peşələri meydana çıxarır? Azərbaycan beşinci sənaye inqilabına nə dərəcədə hazırdır? Kibersuverenlik və məlumat təhlükəsizliyi sahəsində hansı addımlar atılmalıdır? “Təhsil TV” və “Azərbaycan müəllimi”nin bu və digər suallarını AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev cavablandırır.

“Əmək bazarı süni intellektin inkişaf tempinə uyğunlaşır”

- Süni intellekt texnologiyalarının sürətli inkişafı əmək bazarında ciddi dəyişikliklərə səbəb olur. Bu şəraitdə İT ixtisasları üzrə təhsil alan tələbələr hansı istiqamətlərə üstünlük verməlidirlər?

- Hazırda əmək bazarında çox ciddi rəqəmsal transformasiya prosesləri gedir. Bu dəyişikliklər yalnız informasiya texnologiyaları ilə bağlı peşələri əhatə etmir. Tibb, hüquq, iqtisadiyyat, kənd təsərrüfatı və digər sahələrdə də rəqəmsal texnologiyaların rolu getdikcə artır. Artıq hər bir mütəxəssis özünün ənənəvi peşə bilikləri ilə yanaşı, rəqəmsal texnologiyaları da mənimsəməlidir. Başqa sözlə, müasir həkim, hüquqşünas, iqtisadçı və aqrar mütəxəssis öz sahəsinin bilikləri ilə yanaşı, rəqəmsal alətlərdən istifadə bacarıqlarına da malik olmalıdır. Beləliklə, əmək bazarının özündə ciddi transformasiya baş verir. Süni intellekt texnologiyaları isə artıq günümüzün reallığıdır və bu prosesə daha böyük sürət qazandırır.

Süni intellektin əmək bazarına təsiri çoxşaxəlidir. İlk növbədə, rutin və təkrarlanan əməliyyatları yerinə yetirən bəzi peşələrin aradan çıxması təbii prosesdir. Bununla yanaşı, süni intellektin inkişafı yeni texnoloji fəaliyyət istiqamətləri yaradır. Məsələn, məlumatların (datların) toplanması, sistemləşdirilməsi, düzgünlüyünün yoxlanılması, təhriflərdən qorunması, etibarlı saxlanması, təhlükəsizliyinin təmin edilməsi və emalı artıq ayrıca peşəkar fəaliyyət sahələrinə çevrilir. Bu prosesin hər mərhələsi üzrə ixtisaslı mütəxəssislərin yetişdirilməsinə ehtiyac yaranır. Artıq data mühəndislərinə, data menecerlərinə, data analitiklərinə, məlumatların tədqiqi ilə məşğul olan alimlərə, süni intellekt mühəndislərinə tələbat formalaşır.

Süni intellekt mühəndisləri müxtəlif modellərin tətbiqi, parametrlərinin tənzimlənməsi, arxitektura həllərinin seçilməsi, modellərin təkmilləşdirilməsi və qiymətləndirilməsi ilə məşğul olurlar. Eyni zamanda, süni intellekt sistemlərinin yol verdiyi səhvlərin aşkarlanması, təhlili və aradan qaldırılması da mühüm peşəkar fəaliyyət istiqamətidir.

Göründüyü kimi, süni intellektin və ümumilikdə rəqəmsal transformasiyanın dərinləşməsi əmək bazarının xarakterini dəyişir. Yeni texnologiyalarla birlikdə yeni peşələr də sürətlə meydana çıxır. Bu istiqamətdə diqqət çəkmək istədiyim sahələrdən biri də prompt mühəndisliyidir. Bildiyiniz kimi, generativ süni intellekt modelləri mətn, təsvir, video və digər məzmunlar yarada bilir. Lakin istifadəçi çox vaxt öz istəyini süni intellekt modelinə düzgün və dəqiq çatdırmaqda çətinlik çəkir. Məhz bu ehtiyac yeni peşə istiqamətinin - prompt mühəndisliyinin formalaşmasına səbəb olur. Prompt mühəndisləri istifadəçinin istəyini süni intellektin anlaya və düzgün icra edə biləcəyi formada ifadə etməyə kömək edirlər. Bu istiqamət müxtəlif sahələrdə tətbiq oluna bilər. Məsələn, tibb, siyasət, hüquq və digər sahələr üzrə ixtisaslaşmış prompt mühəndislərinə ehtiyac yarana bilər.

Başqa sözlə, istifadəçinin arzusunu və məqsədini süni intellektin imkanları ilə reallaşdırmaq üçün insanla texnologiya arasında müəyyən mənada ssenarist və rejissor rolunu oynayan mütəxəssislər tələb olunur. Onlar insanın istəyini texnologiyanın dilinə çevirir, tapşırıqların düzgün ardıcıllığını və icra məntiqini müəyyənləşdirirlər. Artıq inkişaf etmiş ölkələrin əmək bazarında bu istiqamətdə mütəxəssislər meydana çıxmaqdadır.

Əslində, hər bir sənaye inqilabı əmək bazarına ciddi təsir göstərib. Birinci və ikinci sənaye inqilabları dövründə də bir çox ənənəvi peşələr tədricən aradan çıxıb. Vaxtilə geniş yayılmış, lakin bu gün artıq mövcud olmayan peşələrin yerini mexanikləşdirmə, elektrikləşdirmə və avtomatlaşdırma nəticəsində yeni fəaliyyət istiqamətləri tutub. İndi də oxşar proses baş verir. Süni intellekt və digər qabaqcıl texnologiyalar əmək bazarının strukturunu dəyişir. Süni intellekt hansı işi daha asan və səmərəli şəkildə yerinə yetirə bilirsə, həmin işlərin avtomatlaşdırılması ehtimalı da artır. Sadə və təkrarlanan əməliyyatların bir qismi gələcəkdə ağıllı qurğular, robotlar və dronlar vasitəsilə həyata keçirilə bilər. Məsələn, səhiyyə müəssisələrində bəzi yardımçı əməliyyatlar, restoranlarda yeməklərin çatdırılması, poçt və digər xidmətlərin müəyyən mərhələləri avtomatlaşdırıla bilər.

Beləliklə, əmək bazarı süni intellektin inkişaf tempinə uyğunlaşır və bu proses yeni peşələrə, yeni bilik və bacarıqlara ehtiyac yaradır.

Akademik Rasim Əliquliyevdən açıqlamalar

“Bizim tanıdığımız robotlar və humanoidlər artıq kobotlara çevrilir”

- Son vaxtlar beşinci sənaye inqilabının ilkin əlamətlərinin meydana çıxdığı bildirilir. Azərbaycan, beşinci sənaye inqilabının çağırışlarına nə dərəcədə hazırdır?

- Dördüncü sənaye inqilabı dedikdə, cəmiyyəti və onun ayrı-ayrı sahələrini yüksək sürətlə dəyişdirən bir sıra qabaqcıl texnologiyalar nəzərdə tutulur. Bunların sırasında bulud texnologiyaları və əşyaların interneti xüsusi yer tutur. Bildiyiniz kimi, dördüncü sənaye inqilabına qədər əsasən insanların internetindən söhbət gedirdi. İnsanlar kompüterlər vasitəsilə informasiya mübadiləsi aparırdılar. Sonradan isə müxtəlif fiziki parametrləri ölçən xüsusi sensorlar və qurğular meydana çıxdı. Bu texnologiyalar temperatur, təzyiq və digər göstəricilər haqqında məlumatların toplanmasına, ilkin emalına və internet vasitəsilə ötürülməsinə imkan yaratdı. Beləliklə, əşyaların interneti (IoT) texnologiyası formalaşdı.

Bu texnologiyanın digər mühüm tətbiq istiqamətlərindən biri də insan orqanizmi və sağlamlığı ilə bağlı məlumatların toplanmasıdır. Müxtəlif qadcetlər və ağıllı qurğular vasitəsilə insanın sağlamlıq göstəricilərini izləmək, məlumatları sistemləşdirmək və təhlil etmək mümkün olur.

Bütün bunlar rəqəmsal əkiz texnologiyasının aktuallığını artırıb. Rəqəmsal əkiz dedikdə, hər hansı texnoloji və ya təbii obyektin, prosesin, hətta insanın vəziyyətini əks etdirən rəqəmsal model nəzərdə tutulur. Məsələn, ağacların vəziyyəti, vəhşi heyvanların hərəkəti, istehsal prosesləri və insan sağlamlığı haqqında məlumatlar fasiləsiz toplanaraq vahid sistemdə emal edilə bilər. Bu məlumatlar real vaxt rejimində yeniləndikdə obyektin rəqəmsal əkizini yaratmaq mümkün olur. Beləliklə, dördüncü sənaye inqilabının texnologiyaları istehsal, nəqliyyat, energetika, neft-qaz sənayesi və digər sahələrlə yanaşı, birbaşa insan həyatına da nüfuz edir. Nəticədə insanla texnologiya arasında daha sıx qarşılıqlı əlaqə yaranır.

Məhz bu baxımdan dördüncü sənaye inqilabının texnologiyaları getdikcə insan yönümlü xarakter alır. Bizim indiyədək tanıdığımız robotlar və humanoidlər artıq kobotlara - insanlarla əməkdaşlıq edən robotlara çevrilir.

Kobot anlayışı insanlarla birgə fəaliyyət göstərən, onlarla qarşılıqlı əlaqə quran robot sistemlərini ifadə edir. Bu texnologiyalar iş yerlərində və gündəlik həyatda insanlarla təmasda olur. Burada yalnız texniki məsələlər deyil, həm də etik və hüquqi münasibətlər, qarşılıqlı anlaşma kimi məsələlər aktuallaşır.

Süni intellektlə təchiz olunmuş qurğular insanı fərdi şəkildə tanımaq, onun əhvali-ruhiyyəsini, davranışını, xarakterini və hətta nitq xüsusiyyətlərini (hətta ləhcəsini) müəyyənləşdirmək imkanları əldə edir. İnsana adı ilə müraciət etmək, onun vəziyyəti ilə maraqlanmaq və verdiyi tapşırıqları yerinə yetirmək kimi funksiyalar bu texnologiyaların imkanlarını daha da genişləndirir.

Göründüyü kimi, süni intellekt daşıyıcısı olan texnoloji qurğular tədricən insan cəmiyyətinə xas olan bəzi xüsusiyyətləri mənimsəyir. Bu da onların insanlarla daha təbii qarşılıqlı əlaqə qurmasına şərait yaradır.

Ümumiləşdirsək, dördüncü sənaye inqilabının texnologiyalarının insan cəmiyyəti ilə daha sıx inteqrasiyası beşinci sənaye inqilabının əsas xüsusiyyətlərindən birini təşkil edir. Ümumən, bu proses belədir: 4-cü sənaye inqilabı üstəgəl insan cəmiyyəti, 5-ci sənaye inqilabına bərabərdir.

Beşinci sənaye inqilabının mahiyyəti ondan ibarətdir ki, süni intellekt texnologiyaları, intellektual agentlər və generativ modellər insanlarla daha fəal qarşılıqlı əlaqəyə girəcək, insanların sağlamlığı və həyat fəaliyyəti ilə bağlı məlumatları toplayacaq, onların rəqəmsal əkizlərinin yaradılmasına imkan verəcək. Bütün bunlar 5-ci sənaye inqilabının yaradacağı reallıqlardır.



“Milli data ekosisteminin yaradılması xüsusi əhəmiyyət daşıyır”

- Süni intellekt və bulud texnologiyalarının inkişafı kibertəhlükəsizlik, kibersuverenlik və məlumatların qorunması ilə bağlı məsələləri də aktuallaşdırır. Azərbaycanda bu sahədə vəziyyət necədir və hansı addımlar atılır?

- İlk növbədə, qeyd etmək istərdim ki, hazırda ölkəmizdə kibertəhlükəsizliyin təmin olunması istiqamətində müəyyən işlər həyata keçirilir. Bu məsələyə sistemli yanaşdıqda, ilk növbədə, şəbəkə və kommunikasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi zərurəti ortaya çıxır. Bununla yanaşı, cəmiyyətin müxtəlif sahələrində toplanan məlumatların düzgün və etibarlı şəkildə əldə edilməsi, ötürülməsi, saxlanması və emalı da mühüm əhəmiyyət daşıyır. Məhz bu ehtiyac məlumat suverenliyi anlayışını aktuallaşdırır.

Digər mühüm məsələ həmin məlumatların emalını həyata keçirən texnoloji infrastrukturun yaradılmasıdır. Superkompüter infrastrukturu və data mərkəzlərinin formalaşdırılması ölkənin milli maraqlarına xidmət etməli, milli hüquqi və konstitusion mühit çərçivəsində fəaliyyət göstərməlidir. Bu sistemlər həm cəmiyyət, həm də dövlət qarşısında məsuliyyət daşımalı, kənar təsirlərə qarşı etibarlı və dayanıqlı olmalıdır.


Bütün bunlar dövlətin kibersuverenliyinin və rəqəmsal suverenliyinin təmin edilməsini zəruri edir. Bu istiqamətdə Azərbaycanda ölkə başçısı tərəfindən müvafiq dövlət qurumlarının və alimlərin qarşısında konkret vəzifələr müəyyənləşdirilib. Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanda rəqəmsal mühit sürətlə inkişaf edir. Süni intellekt texnologiyalarının ölkəmizdə tətbiqi, bu sahədə dövlət strategiyasının qəbul edilməsi və müvafiq qurumların qarşısında mühüm vəzifələrin qoyulması yeni mərhələnin başlanğıcından xəbər verir.

Əsas məsələ ondan ibarətdir ki, fəaliyyət sahəsindən asılı olmayaraq, hər kəs öz məlumatlarına sahib çıxmalıdır. İstər səhiyyə, istər bank-maliyyə sektoru, istərsə də dövlət idarəçiliyi olsun, hər bir sahədə məlumatlar vaxtında və düzgün toplanmalı, etibarlı şəkildə saxlanmalı və səmərəli emal edilməlidir.

Bu baxımdan milli data ekosisteminin yaradılması xüsusi əhəmiyyət daşıyır. Məlumatların toplanması, idarə olunması, emalı və təhlükəsizliyinin təmin edilməsi vahid və sistemli yanaşma tələb edir. Təbii ki, bu istiqamətdə müəyyən problemlər və obyektiv çətinliklər də mövcuddur. Lakin ölkəmizdə milli kibersuverenliyin təmin edilməsi məqsədilə dövlət proqramları çərçivəsində ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

Oruc MUSTAFAYEV

“BilBacar” müsabiqəsi yenidən başlayır!




“BilBacar” müsabiqəsi yenidən başlayır!
Müsabiqə 2026/2027-ci tədris ilində III-IV sinif şagirdlərini əhatə edəcək. Bu il müsabiqənin məqsədi ibtidai sinif şagirdlərinin təbiət elmləri (həyat bilgisi çərçivəsində) və riyaziyyat üzrə bilik və bacarıqlarını inkişaf etdirmək, eyni zamanda, onlara kompüter əsaslı qiymətləndirmə mühitində təcrübə qazandırmaqdır.

Müsabiqə 2026-cı ilin noyabr ayından 2027-ci ilin may ayınadək virtual platforma üzərindən keçiriləcək. Yarış çərçivəsində şagirdlərə təxminən 40-60 sual təqdim olunacaq. Şagirdlərin yarış mərhələsinə hazırlaşmaları üçün platformada “Hazırlıq” bölməsi də fəaliyyət göstərəcək.

Şagirdlər topladıqları ballara əsasən altı liqa üzrə sıralanacaqlar. Birinci mərhələnin nəticələrinə əsasən “Qızıl”, “Kristal”, “Çempion” və “Usta” liqalarında yer alan şagirdlər 2027-ci ilin iyun ayının ilk yarısında keçiriləcək final mərhələsində iştirak edəcəklər. Final mərhələsinin qalibləri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.


Magistr və doktorantlar üçün süni intellekt dəstəkli təlim

Magistrant və doktorantların beynəlxalq elmi platformalardan və süni intellekt alətlərindən səmərəli istifadə bacarıqlarının artırılması məqsədilə onlayn təlim keçirilib.



Noyabr 5-də “Elsevier” şirkətinin nümayəndəsi Saide Sak tərəfindən onlayn və türk dilində keçirilən təlim çərçivəsində iştirakçılara "Scopus" platformasının imkanları, süni intellekt alətlərindən məsuliyyətli və etik istifadə, elmi ədəbiyyatın effektiv axtarışı, aktual dissertasiya mövzularının müəyyənləşdirilməsi, potensial elmi rəhbərlərin və tədqiqat qruplarının aşkar edilməsi barədə məlumat verilib.

Təlim magistrant və doktorantlara əldə etdikləri bilikləri dissertasiya hazırlığı və gələcək elmi-tədqiqat fəaliyyətlərində tətbiq etmək, beynəlxalq elmi resurslardan daha səmərəli yararlanmaq imkanı yaradacaq.



Müasir təhsilşünaslıqda şagird nailiyyətlərinə təsir edən amillərin elmi dəlillər əsasında müəyyənləşdirilməsi istiqamətində mühüm tədqiqatlar aparmış alimlərdən biri Con Hettidir (John Hattie). Yeni Zelandiya mənşəli alim və təhsil tədqiqatçısı Con Allan Klinton Hetti 1950-ci ildə Yeni Zelandiyanın Timaru şəhərində anadan olmuşdur. Onun elmi fəaliyyəti uzun illər ərzində təhsil nailiyyətlərinin ölçülməsi, qiymətləndirmə, müəllim fəaliyyətinin səmərəliliyi, öyrənmə prosesinə təsir edən amillər və tədris strategiyalarının nəticəliliyi məsələlərinə həsr edilmişdir. Hettinin tədqiqatlarının əsas mahiyyəti təhsil haqqında mülahizələri yalnız nəzəri yanaşmalarla deyil, böyük həcmdə empirik tədqiqatların statistik ümumiləşdirilməsi ilə əsaslandırmaqdan ibarət olmuşdur. Hetti ali təhsilini Yeni Zelandiyanın Otago Universitetində almış, daha sonra Kanadanın Toronto Universitetində doktorluq səviyyəsinə yüksəlmişdir. 1981-ci ildə Toronto Universitetində fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Onun doktorluq tədqiqatı ölçmə və statistik təhlillə bağlı olmuşdur. Bu fakt sonrakı elmi fəaliyyətinin istiqamətini anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Çünki Hettinin sonrakı işlərində təhsil hadisələrinin ölçülməsi, müxtəlif tədris müdaxilələrinin təsir gücünün müqayisə edilməsi və statistik göstəricilərdən istifadə aparıcı yer tutur.

CON HETTİ VƏ “GÖRÜNƏN ÖYRƏNMƏ” ƏSƏRİ

Con Hettinin həyatı və elmi-pedaqoji fəaliyyəti

Alim uzun illər Yeni Zelandiya, Avstraliya, ABŞ və Kanadada müxtəlif akademik və tədqiqat vəzifələrində çalışmışdır. O, Qərbi Avstraliya Universitetində, Şimali Karolina Qrinsboro Universitetində və Oklend Universitetində professor kimi fəaliyyət göstərmişdir. 2011-ci ildən Melburn Universitetində təhsil professoru kimi işləmiş və Melbourn Təhsil Tədqiqatları İnstitutunun rəhbəri olmuşdur. Hettinin fəaliyyəti yalnız universitet auditoriyası ilə məhdudlaşmamış, onun tədqiqatları müəllim hazırlığı, məktəb rəhbərliyi, təhsil siyasəti və təhsildə keyfiyyətin artırılması məsələləri ilə də əlaqəli olmuşdur.

İstedadlı gənc tədqiqatçı, təhsilşünas Cəfər Mənsimi “Yeni çağırışlar” kitabında yazır ki, professor Con Hettinin “Görünən öyrənmə” kitabı dünyanın ən böyük tədqiqatı sayılır və “dəyişiklik ücün məktəb modeli” adlanır. O, 1000-dən cox elmi məqalənin müəllifi, 200 dissertasiya və 52 kitabın elmi rəhbəri, həmçinin Hetti Ailə Fondunun prezidentidir. Onun tədqiqatları öyrənmə və ölçmə modellərini əks etdirir.

Con Hettinin elmi yaradıcılığında əsas istiqamətlərdən biri “təhsil prosesində nə həqiqətən işləyir?” sualına cavab axtarmaq olmuşdur. Təhsil elmlərində uzun müddət müxtəlif metod və texnologiyaların səmərəliliyi haqqında çoxsaylı tədqiqatlar aparılsa da, bu tədqiqatların nəticələrini vahid sistemdə müqayisə etmək və ümumiləşdirmək asan deyildi. Müəllim və məktəb rəhbərləri qarşısında çox zaman eyni problem dayanırdı. Hansı tədris yanaşmasına üstünlük verilməlidir, hansı müdaxilənin şagird nailiyyətlərinə real təsiri daha böyükdür və həmin təsiri necə ölçmək mümkündür?

Məhz bu suallar Hettinin sonralar “Görünən öyrənmə” (Visible Learning) adlandırdığı elmi yanaşmasının formalaşmasına zəmin yaratmışdır. Onun fikrincə, təhsildə sadəcə müəyyən metodun tətbiq edilməsi kifayət deyil. Müəllim həmin metodun şagirdin öyrənməsinə hansı təsiri göstərdiyini bilməlidir. Başqa sözlə, tədris prosesinin nəticəsi müəllim üçün “görünən” olmalıdır. Bu yanaşmada müəllim yalnız dərsi təşkil edən şəxs hesab edilmir. Həm də öz fəaliyyətinin təsirini daim müşahidə edən, ölçən, qiymətləndirən və lazım gəldikdə tədris strategiyasını dəyişən peşəkar bir insandır.

Hettinin elmi fəaliyyətinin ən mühüm nəticəsi onun 15 ildən artıq davam edən araşdırmalarının "Görünən Öyrənmə: Nailiyyətlə Bağlı 800-dən Çox Meta-Analizin Sintezi" (Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement) adlı kitabda sistemləşdirilməsi olmuşdur. Əsər ilk dəfə 2008-ci ildə Routledge nəşriyyatı tərəfindən çap edilmişdir. Bəzi beynəlxalq kataloqlarda və sonrakı nəşrlərdə isə bu kitab 2009-cu il nəşri kimi də göstərilir. Əsər dünyanın 25-dən çox dilinə, o cümlədən Azərbaycan dilinə tərcümə olunmuşdur.

John Hattienin "Görünən öyrənmə" kitabında mənbələr, təsir amilləri və tədris modeli üzrə araşdırmalar ümumiləşdirilir. Sonda təklif olunan tədris modeli verilir.

Həmçinin John Hattinin kurikulumlar haqqında da yanaşması fərqlidir. Onun qənaətinə görə, kurikulumun nəyi əhatə etməsindən daha çox, fənn məzmununun necə struktura salındığı və şagirdə necə çatdırıldığı həlledicidir.

Kitabın əsasını 800-dən çox meta-analizin sintezi təşkil edirdi. Hettinin yanaşmasının fərqləndirici cəhəti ondan ibarət idi ki, o, ayrı-ayrı pedaqoji tədqiqatların nəticələrini sadəcə sadalamaqla kifayətlənməmiş, müxtəlif tədqiqatlardan əldə olunan nəticələri ümumi statistik çərçivədə müqayisə etməyə çalışmışdır. Routledge nəşriyyatının məlumatına görə, kitab məktəbyaşlı uşaqların nailiyyətlərinə təsir edən amillərlə bağlı 800-dən çox meta-analizi ümumiləşdirir və bu tədqiqatlar milyonlarla şagird haqqında məlumatı əhatə edir. Melburn Universitetinin Hettinin fəaliyyəti ilə bağlı məlumatında isə ilkin “Görünən öyrənmə” tədqiqatının 50 minə yaxın ayrıca araşdırmanı və 80 milyondan çox şagird haqqında məlumatı əhatə etdiyi bildirilir.

Bu miqyas Hettinin əsərini təhsil tədqiqatları tarixində xüsusi hadisəyə çevirmişdir. Əsərin yeniliyi yalnız böyük rəqəmlərlə bağlı deyildi. Əsas yenilik müxtəlif pedaqoji təsirlərin effekt ölçüsü əsasında müqayisə edilməsində idi. Beləliklə, “bu metod yaxşıdırmı?” sualından daha irəli gedərək “bu metod digər yanaşmalarla müqayisədə şagird öyrənməsinə nə qədər təsir edir?” sualına cavab axtarılırdı.

Hettinin əsəri beynəlxalq təhsil ictimaiyyətində çox böyük maraq doğurdu. Routledge tərəfindən təqdim edilən rəylərdə Maykl Fullan “Görünən öyrənmə” əsərini tədris və öyrənmənin yaxşılaşdırılması ilə maraqlananlar üçün mühüm kitab kimi qiymətləndirmiş, Herbert J. Walberg isə Hettinin çoxsaylı tədqiqat nəticələrini bir araya gətirmək üçün böyük elmi səy göstərdiyini vurğulamışdır. Times Educational Supplement isə əsəri təhsildə “Müqəddəs Qraal” axtarışına bənzətmişdir. Bu ifadələr kitabın beynəlxalq pedaqoji diskursda nə qədər böyük rezonans yaratdığını göstərir.

Lakin Hettinin elmi irsi yalnız yüksək qiymətləndirmələrlə xarakterizə olunmur. Sonrakı illərdə bir sıra təhsil tədqiqatçıları onun meta-analizlərin birləşdirilməsi üsuluna, “effekt ölçüsü” göstəricisinin təhsildə şərhinə və müxtəlif kontekstlərdə əldə olunmuş nəticələrin bir ümumi sıralamada müqayisə edilməsinə tənqidi yanaşmışlar. Məsələn, Aarhus Universitetindən Tomas Aastrup Römer Hettinin “Görünən öyrənmə” nəzəriyyəsinin metodoloji və nəzəri əsaslarına ciddi suallar yönəltmişdir. Klaus Nielsen və Jacob Klitmoller də Hettinin yanaşmasında ayrı-ayrı səbəb amillərinə həddindən artıq diqqət yetirilməsinin təhsilin mürəkkəb sosial və mədəni kontekstini kölgədə qoya biləcəyini irəli sürmüşlər.

Bu tənqidlərə baxmayaraq, “Görünən öyrənmə”nin müasir təhsilşünaslıqdakı əhəmiyyətini azaltmaq mümkün deyil. Əksinə, əsərin əsas dəyərindən biri təhsildə sübutlara əsaslanan qərarvermə məsələsini geniş pedaqoji müzakirəyə gətirməsidir. Hettinin yanaşması müəllimi hazır reseptlərin icraçısı kimi deyil, öz fəaliyyətinin nəticələrini araşdıran və öyrənmə prosesini daim təkmilləşdirən tədqiqatçı kimi görməyə imkan verir.

Beləliklə, Con Hettinin elmi yolu onun “Görünən öyrənmə” əsərinin meydana çıxmasını təsadüfi hadisə kimi deyil, uzun illər ərzində aparılan ölçmə, qiymətləndirmə və təhsil tədqiqatlarının məntiqi nəticəsi kimi təqdim etməyə imkan verir. Onun qarşısında duran əsas məsələ təhsildə çoxsaylı “nə işləyir?” suallarına daha sistemli və statistik əsaslandırılmış cavab tapmaq idi. “Görünən öyrənmə” məhz bu axtarışın nəticəsi kimi meydana çıxaraq təhsil tədqiqatlarının miqyasını, müəllimin rolunu və qiymətləndirmənin funksiyasını yenidən müzakirəyə çıxardı.

“Görünən öyrənmə” əsərinin yaranma səbəbləri və tədqiqat miqyası

Təhsil haqqında danışarkən ən çox səsləndirilən suallardan biri “şagirdlərin daha yaxşı öyrənməsi üçün nə etmək lazımdır?” sualıdır. Lakin bu sualın cavabı həmişə sadə olmur. Təhsil tarixində müxtəlif pedaqoji metodlar, təlim texnologiyaları, qiymətləndirmə üsulları və məktəb islahatları təklif edilmiş, onların bir çoxu müəyyən dövrlərdə effektiv hesab olunmuşdur. Problem isə ondan ibarət idi ki, ayrı-ayrı tədqiqatların nəticələri çox vaxt bir-birindən fərqlənirdi. Bir tədqiqat müəyyən metodun əhəmiyyətli nəticə verdiyini göstərdiyi halda, digər tədqiqat həmin metodun təsirinin zəif olduğunu ortaya qoyurdu. Con Hettinin “Görünən öyrənmə” layihəsinin əsas məqsədlərindən biri məhz bu dağınıq elmi nəticələri sistemləşdirmək və müəllimlər üçün daha aydın sübut bazası yaratmaq olmuşdur.

Hettinin öz təqdimatlarında vurğuladığı kimi, “Görünən öyrənmə” 15 ildən artıq davam edən tədqiqat fəaliyyətinin nəticəsi idi. Tədqiqatın məqsədi təhsildə “nəyin işlədiyini” müəyyənləşdirməkdən daha geniş idi. Əsas məsələ müxtəlif amillərin şagird nailiyyətlərinə nə dərəcədə təsir etdiyini müqayisə etmək idi. Bu fərq mühümdür. Çünki hər hansı metodun müəyyən qədər faydalı olması onun başqa metodlardan daha faydalı olduğu anlamına gəlmir. Hettinin yanaşması məhz bu müqayisəni statistik göstəricilər vasitəsilə aparmağa çalışırdı.

Bu məqsədlə alim ayrı-ayrı ilkin tədqiqatlardan birbaşa nəticə çıxarmaq əvəzinə, əvvəlki meta-analizləri bir araya gətirmişdir. Buna görə “Görünən öyrənmə” əsəri çox vaxt “meta-meta-analiz” kimi xarakterizə edilir. Sadə dillə desək, meta-analiz bir mövzu üzrə aparılmış çoxsaylı tədqiqatların nəticələrini ümumiləşdirirsə, Hettinin gördüyü iş həmin meta-analizlərin nəticələrini yenidən sistemləşdirib müqayisə etmək idi. 2008-ci ildə ilk dəfə nəşr edilən kitabda 800-dən çox meta-analiz ümumiləşdirilmiş və şagird nailiyyətlərinə təsir edən 138 amil müəyyənləşdirilmişdi.

Bu göstəricilər “Görünən öyrənmə”ni təhsil elmlərində miqyasına görə xüsusi tədqiqatlardan birinə çevirir. Tədqiqatın əsasını təşkil edən 800-dən artıq meta-analizin arxasında 50 mindən çox ayrıca tədqiqatın dayandığı və bu tədqiqatların 80 milyondan çox şagird haqqında məlumatı əhatə etdiyi bildirilir. Bu səbəbdən Hettinin əsəri yalnız bir müəllifin müəyyən pedaqoji metod haqqında şəxsi mövqeyi deyil, böyük həcmdə mövcud elmi materialın statistik sintezidir.

Tədqiqatın miqyasını təsəvvür etmək üçün onu ənənəvi pedaqoji araşdırma ilə müqayisə etmək olar. Adi bir tədqiqat müəyyən məktəbdə, müəyyən yaş qrupunda və konkret tədris şəraitində aparıla bilər. Hettinin məqsədi isə müxtəlif ölkələrdə, müxtəlif yaş qruplarında və müxtəlif təhsil kontekstlərində aparılmış çoxsaylı tədqiqatların ümumi istiqamətini müəyyənləşdirmək idi. Buna görə də onun tədqiqatının əsas sualı “bu məktəbdə hansı metod işə yaradı?” kimi deyil, “müxtəlif tədqiqatların məcmusunda hansı amillər şagird öyrənməsinə daha güclü təsir göstərir?” formasını aldı.

Əsərin mühüm yeniliklərindən biri də təhsil nəticələrinin müqayisəsində effekt ölçüsü (effect size) anlayışının mərkəzi yerə gətirilməsi idi. Effekt ölçüsü sadə şəkildə müəyyən müdaxilə və ya amilin şagird nəticələrinə təsirinin gücünü ifadə edən statistik göstərici kimi başa düşülə bilər. Hettinin yanaşmasında müxtəlif tədris strategiyalarını yalnız “faydalıdır” və ya “faydasızdır” prinsipi ilə qiymətləndirmək əvəzinə, onların təsir gücünü bir-biri ilə müqayisə etmək mümkün olurdu. 2009-cu il “Görünən öyrənmə” siyahısında 138 təsirin müqayisə edilməsi məhz bu prinsipə əsaslanırdı.

Bu yanaşma təhsil sahəsində mühüm düşüncə dəyişikliyi yaratdı. Əvvəllər, müəllim üçün “yaxşı metod” anlayışı bəzən pedaqoji ənənə, şəxsi təcrübə və ya müəyyən metodun populyarlığı ilə müəyyənləşə bilirdi. Hettinin yanaşması isə müəllimi daha çətin, lakin daha məhsuldar suala yönəldirdi. Məsələ, “Mənim tətbiq etdiyim metod şagirdlərin öyrənməsinə konkret olaraq nə qədər təsir edir?” Beləliklə, müəllimin fəaliyyəti yalnız tədris etməkdən ibarət deyil, həm də öz tədrisinin nəticəsini müşahidə etmək və ölçmək prosesinə çevrilirdi.

Məhz “görünən” anlayışı burada xüsusi məna daşıyır. Hettinin nəzəri çərçivəsində öyrənmə həm müəllim, həm də şagird üçün görünən olmalıdır. Müəllim şagirdin nəyi bildiyini, nəyi bilmədiyini və hansı istiqamətdə irəlilədiyini müəyyənləşdirməli, şagird isə öz öyrənmə prosesinin məqsədini, mövcud səviyyəsini və növbəti inkişaf mərhələsini dərk etməlidir. Belə olduqda qiymətləndirmə sadəcə dərsin sonunda verilən qiymət və ya imtahan nəticəsi deyil, öyrənməni istiqamətləndirən davamlı informasiya mənbəyinə çevrilir.

Hettinin tədqiqatının geniş rezonans doğurmasının başqa bir səbəbi onun müəllim fəaliyyətinə münasibətində idi. O, təhsildə nəticəni müəyyən edən əsas məsələlərdən birini müəllimin “öz təsirini görməsi” ilə əlaqələndirirdi. Bu yanaşmaya əsasən, müəllim “mən dərsi keçdim” deməklə kifayətlənməməli, “şagirdlər nə öyrəndilər və mənim tədrisim onların öyrənməsinə necə təsir etdi?” suallarını verməlidir. Beləliklə, tədrisin mərkəzinə müəllimin gördüyü işdən çox, həmin işin şagird öyrənməsində yaratdığı dəyişiklik gətirilir.


Əsərin beynəlxalq əhəmiyyətini göstərən faktlardan biri də onun təhsil ictimaiyyətində yaratdığı geniş müzakirələrdir. “Times Təhsil Əlavəsi” (Times Educational Supplement) Hettinin əsərini tədrisdə “Müqəddəs Qədəh”ın axtarışı ilə müqayisə etmişdi. Bu ifadə əsərin müəllimlər və tədqiqatçılar üçün “ən effektiv təlim üsullarını” müəyyənləşdirmək cəhdi kimi qəbul edildiyini göstərir. Eyni zamanda, Maykl Fullan və Herbert J. Valberg kimi tanınmış təhsil tədqiqatçıları əsərin böyük miqyasda mövcud tədqiqat nəticələrini bir araya gətirməsini yüksək qiymətləndirmişlər.

Bununla yanaşı, “Görünən öyrənmə”nin elmi təsirini onun ətrafında yaranmış tənqidi diskussiyalardan ayrı təsəvvür etmək olmaz. Bəzi tədqiqatçılar Hettinin çox fərqli təhsil müdaxilələrini vahid effekt ölçüsü əsasında müqayisə etməsinin metodoloji məhdudiyyətlər yarada biləcəyini qeyd etmişlər. Digər tənqidlər isə təhsilin yalnız ölçülə bilən akademik nailiyyətlərdən ibarət olmadığını, sosial, emosional, mədəni və institusional amillərin də nəzərə alınmasının vacibliyini vurğulayır. Bu tənqidlər əsərin əhəmiyyətini mütləq şəkildə inkar etmir, əksinə, onun təhsil elmlərində yaratdığı müzakirənin genişliyini göstərir.

Əslində, Hettinin əsərinin ən böyük əhəmiyyətli cəhətlərindən biri də məhz budur ki, o, təhsil haqqında qərarların yalnız intuisiya, ənənə və ya populyarlıq əsasında qəbul edilməsi problemini gündəmə gətirdi. Çünki “Görünən öyrənmə”nin əsas mesajlarından biri sübuta əsaslanan pedaqoji qərarvermənin gücləndirilməsidir. Təhsil işçisi hansısa yanaşmanı tətbiq edərkən onun effektivliyi barədə mövcud elmi sübutları nəzərdən keçirməli, həmin yanaşmanın konkret şagird qrupunda nəticəsini müşahidə etməli və əldə etdiyi məlumat əsasında növbəti pedaqoji addımı müəyyənləşdirməlidir.

Tədqiqatın sonrakı inkişafı da göstərdi ki, “Görünən öyrənmə” statik siyahı kimi nəzərdə tutulmamışdır. Hettinin təsir göstəriciləri sonrakı illərdə yenilənmiş, yeni meta-analizlər və yeni amillər əlavə edilmişdir. Məsələn, ilkin 2009-cu il siyahısındakı 138 təsirdən sonra daha geniş siyahılar hazırlanmış, tədqiqat bazası 800 meta-analizdən minlərlə meta-analizə doğru genişlənmişdir. Bu isə “Görünən öyrənmə”ni bir dəfə yazılıb başa çatmış kitabdan daha çox, daim yenilənən tədqiqat proqramı kimi xarakterizə etməyə imkan verir.

Beləliklə, “Görünən öyrənmə”nin yaranmasının başlıca səbəbi təhsil sahəsində mövcud olan çoxsaylı tədqiqat nəticələrini vahid elmi çərçivədə toplamaq, müxtəlif təsirləri müqayisə etmək və müəllimlərin pedaqoji qərarlarını daha etibarlı sübutlarla dəstəkləmək cəhdi olmuşdur. 800-dən çox meta-analiz, 50 mindən artıq ilkin tədqiqat və 80 milyondan çox şagird haqqında məlumatın sintezi bu layihəni təhsil tədqiqatları tarixində miqyasına görə qeyri-adi nümunələrdən birinə çevirmişdir. Əsərin əsl innovativ tərəfi isə təkcə böyük məlumat bazası yaratması deyil, həmin məlumatları müəllimin gündəlik fəaliyyəti üçün praktik suallara çevirməyə çalışmasıdır. Təcrübələr onu göstərir ki, müasir dünyanın təhsil məkanlarından biri kimi qiymətləndirmə sahəsində olan bu yeniliklərə fəal mövqedən yanaşmalı və onları öz təcrübəmizin reallıqlarına çevirməliyik. Çünki biz bununla zamanın ən mütərəqqi təhsil tədqiqatlarından istifadə edərək ölkəmizin təhsil sahəsində həyata keçirdiyi qiymətləndirmə siyasətini daha da gücləndirə bilərik.



Ənvər ABBASOV,
Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim

80 illik Elm və Təhsil salnaməsi: Azərbaycan Dillər Universiteti

Azərbaycanın ali təhsil sistemində özünəməxsus fəaliyyət profili, zəngin ənənələri və qlobal miqyaslı uğurları ilə seçilən aparıcı elm və tədris mərkəzlərindən biri - Azərbaycan Dillər Universiteti 80 illik yubileyini qeyd edir. Qurulduğu gündən etibarən ölkədə xarici dillərin öyrənilməsi, dilçilik elminin inkişafı, tərcüməçilik sənətinin təməllərinin atılması və beynəlxalq münasibətlər sahəsində peşəkar kadrların hazırlanması missiyasını üzərinə götürən bu ali məktəb, ötən onilliklər ərzində Azərbaycan təhsilinin flaqmanlarından birinə çevrilmişdir. Zəngin inkişaf yolu keçən ADU bu gün regional miqyasdan çıxaraq qlobal təhsil arenasında tanınan müasir tipli elmi-tədris müəssisəsi kimi tanınır.

Universitetin tarixi kökləri 1937-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun nəzdində Xarici dillər fakültəsinin yaradılması ilə başlayır. Bu addım respublikada xarici dilləri dərindən bilən mütəxəssislərə olan kəskin tələbatı ödəmək məqsədi daşıyırdı. 1948-ci ildə bu strukturun bazasında müstəqil Xarici Dillər İnstitutu təsis edildi. Fərqli dövrlərdə müəyyən struktur dəyişiklikləri, digər institutlarla birləşmə və yenidən ayrılma prosesləri baş versə də, universitet öz daxili gücünü itirməmiş, əksinə, elmi-pedaqoji potensialını ildən-ilə daha da artırmışdır.

ADU-nun yüksəliş və çiçəklənmə dövrü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi illərinə təsadüf edir. Ulu Öndər gənc nəslin xarici dillərə yiyələnməsinin və beynəlxalq əlaqələrin inkişafının strateji əhəmiyyətini hələ sovet dönəmində çox aydın şəkildə ifadə edirdi. Məhz onun birbaşa diqqəti, hamiliyi və uzaqgörən qərarları nəticəsində təhsil müəssisəsi yeni tədris binaları ilə təmin olundu, maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirildi və xarici ölkələrin aparıcı universitetləri ilə ilkin mübadilə proqramlarının əsası qoyuldu.

Heydər Əliyevin "Hər bir azərbaycanlı ən azı bir neçə xarici dil bilməlidir" tövsiyəsi bütöv bir nəsil üçün yol xəritəsinə çevrildi və bu ali missiyanın mərkəzində məhz Azərbaycan Dillər Universiteti dayandı.

Müstəqillik illərində, xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə ADU keyfiyyətcə tam yeni, modernləşmə mərhələsinə qədəm qoymuşdur. Dövlət başçısının təhsil islahatlarına verdiyi davamlı dəstək universitetin dünya təhsil sisteminə uğurlu inteqrasiyasını təmin etdi. Hazırda universitet tanınmış ictimai xadim, xalq yazıçısı, akademik Kamal Abdullanın rəhbərliyi altında fəaliyyət göstərir. Rəhbərlik tərəfindən həyata keçirilən məqsədyönlü islahatlar, elmi yaradıcılıq mühitinin genişləndirilməsi və beynəlxalq tərəfdaşlıq şəbəkəsinin şaxələndirilməsi ADU-nu müasir dünyanın çağırışlarına cavab verən intellektual mərkəzə çevirmişdir.

Yubiley ilini süsləyən, tək bu ali məktəbin deyil, bütövlükdə Azərbaycan ali təhsil sisteminin tarixinə qızıl hərflərlə yazılan ən böyük uğurlardan biri universitetin beynəlxalq reytinq göstəriciləridir. Dünyanın ən nüfuzlu reytinq agentliklərindən sayılan "QS World University Rankings"-in fənlər üzrə açıqladığı hesabatda Azərbaycan Dillər Universiteti "Müasir dillər" sahəsində dünyanın ən yaxşı universitetləri sırasına daxil olaraq bir ilkə imza atmışdır.

Bu qlobal tanınma təsadüfi xarakter daşımır. Bu, illər boyu davam edən fundamental elmi araşdırmaların, beynəlxalq istinad göstəricilərinin, akademik nüfuzun və işəgötürənlər arasında aparılan sorğuların yüksək nəticələrinin məntiqi yekunudur. Dünyanın minlərlə tanınmış universitetinin rəqabət apardığı bu platformada ADU-nun bu uguru təhsilin məzmunca yeniləndiyini və tətbiq edilən metodologiyanın beynəlxalq standartlarla tam uzlaşdığını nümayiş etdirir.

Azərbaycan Dillər Universiteti sadəcə xarici dillərin qrammatikasını öyrədən bir məktəb deyil, bu təhsil ocağı qlobal mədəniyyətləri birləşdirən universal bir körpü rolunu oynayır. Universitet daxilində hazırda 20-dən çox ölkənin dil və mədəniyyət mərkəzləri fəaliyyət göstərir. ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İspaniya, İtaliya mərkəzləri ilə yanaşı, Şərq mədəniyyətinin fəlsəfəsini öyrənməyi təşviq edən Çin (Konfusi İnstitutu), Koreya, İndoneziya, Yaponiya, Hindistan və Ərəb ölkələri mərkəzləri tələbələrin ixtiyarına verilmişdir. Xarici ölkələrin Azərbaycandakı səfirlikləri və rəsmi qurumları ilə birbaşa əlaqədə çalışan bu mərkəzlər tələbələrə dili bilavasitə onun daşıyıcılarından öyrənmək və həmin xalqların mədəni mühitini dərindən dərk etmək imkanı yaradır.

Universitetin ölkə hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzləri isə milli maraqlarımızın qorunması, Azərbaycan həqiqətlərinin, ölkəmizin multikulturalizm modelinin və zəngin irsimizin dünyada tanıdılması istiqamətində müstəsna rol oynayır. Rusiya, Çin, Rumıniya, Serbiya və digər ölkələrin aparıcı universitetlərində ADU-nun təşəbbüsü və dəstəyi ilə yaradılmış bu mərkəzlər Azərbaycan mədəniyyətinin xarici ölkələrdəki elmi-mədəni elçilikləri funksiyasını uğurla yerinə yetirir.

Elmi tədqiqatların əhatə dairəsinin genişləndirilməsi istiqamətində də ADU-da mühüm addımlar atılır. Universitet innovativ yanaşma nümayiş etdirərək Azərbaycanda ilk dəfə Afrikaşünaslıq istiqamətinin inkişafına start vermiş və qitənin ən yayğın dili olan suahili dilinin tədrisini təşkil etmişdir. Bu addım ölkəmizin xarici siyasət strategiyasında Afrika dövlətləri ilə qurulan yeni münasibətlərə elmi-kadr dəstəyi baxımından xüsusi əhəmiyyət kəsb edir.

ADU-nun bugünkü gücü onun yüksək ixtisaslı professor-müəllim heyətindən qaynaqlanır. Universitetin müasir tədris strukturu bir neçə böyük fakültəni - İngilis və alman dilləri, Tərcümə, Beynəlxalq münasibətlər və regionşünaslıq, Təhsil, eləcə də Filologiya fakültələrini əhatə edir.

Tədris proqramları mütəmadi olaraq yenilənir və beynəlxalq akkreditasiya tələblərinə uyğunlaşdırılır. Universitetdə təkcə nəzəri biliklər deyil, həm də sinxron və ardıcıl tərcümə vərdişləri ən müasir laboratoriya şəraitində tələbələrə aşılanır. Müxtəlif mübadilə proqramları çərçivəsində hər il onlarla tələbə və müəllim Avropanın, Asiyanın qabaqcıl universitetlərində təhsilini və təcrübəsini artırmaq şansı qazanır.

Elmi nəşrlər və tədqiqat mərkəzləri də ADU-nun fəaliyyətində xüsusi çəkiyə malikdir. Universitetin elmi jurnalları Ali Attestasiya Komissiyasının reyestrinə daxil olmaqla yanaşı, müxtəlif beynəlxalq indekslərdə bazalarında yer alır. Bu resurslar gənc tədqiqatçıların, doktorant və magistrlərin elmi axtarışlarını dünya ictimaiyyətinə təqdim etmək üçün böyük platformadır.

Hər bir ali təhsil müəssisəsinin əsas hərəkətverici qüvvəsi və güzgüsü onun tələbələridir. ADU hər tədris ilində respublika üzrə ən yüksək keçid balları toplayan abituriyentlərin üstünlük verdiyi əsas seçimlərdən biri olaraq qalır.

Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və Könüllülər hərəkatı gənclərin asudə vaxtının səmərəli təşkilində, onların sosial layihələrdə aktiv iştirakında mühüm platformalardır. Universitet tələbələri dövlət səviyyəli beynəlxalq tədbirlərdə, idman yarışlarında və mədəniyyət layihələrində könüllü tərcüməçi qismində ölkəmizi daim uğurla təmsil edirlər. Vətən müharibəsində və tarixi torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə ADU-nun tələbə və məzunlarının göstərdiyi qəhrəmanlıqlar, universitetdə gənclərin vətənpərvərlik ruhunun necə yüksək səviyyədə formalaşdırıldığının bariz sübutudur.

Azərbaycan Dillər Universiteti 80 illik yubiley zirvəsinə sadəcə təqvim yaşı ilə deyil, böyük elmi nailiyyətlər, beynəlxalq reytinqlərdə qazanılmış uğurlar, minlərlə yüksək ixtisaslı məzun ordusu və gələcəyə yönəlmiş strateji hədəflərlə yetmişdir. Yarandığı gündən bəri Azərbaycan dövlətçiliyinə, elminə və mədəniyyətinə sədaqətlə xidmət edən bu müqəddəs elm ocağı, öz fundamental ənənələrini qoruyaraq gələcəyə doğru inamlı addımlarla irəliləyir.

Anar OSMANLI

Azərbaycan Tələbə Liqasının 2026/2027 mövsümünə start verilib

Ali təhsil müəssisələrinin tələbələri arasında futzal üzrə Azərbaycan Tələbə Liqasının 2026/2027 mövsümünə start verilib. Liqanın A qrupunda mübarizə aparan Azərbaycan İdman Akademiyası və Bakı Mühəndislik Universitetinin komandalarının qarşılaşması olub, oyun 3:2 hesabı ilə başa çatıb. Daha sonra Azərbaycan Dövlət İqtisad Universitetinin komandası Azərbaycan Tibb Universitetinin komandasına 7:4, Odlar Yurdu Universitetinin komandası ADA Universitetinin komandasına 6:1 hesabla qalib gəlib. Liqanın B qrupunda qarşılaşan Bakı Slavyan Universitetinin komandası Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandasına 1:8 hesabla məğlub olub. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin komandası Milli Aviasiya Akademiyasının komandasına 1:0, Azərbaycan Dövlət Pedaqoji Universitetinin komandası Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının komandasına 8:1, Azərbaycan Texniki Universitetinin komandası Bakı Ali Neft Məktəbinin komandasına 2:0 hesabla qalib gəlib.



Qeyd edək ki, Azərbaycan Tələbə Liqası Elm və Təhsil Nazirliyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.

15 ali təhsil müəssisəsinin komandasının mübarizə apardığı liqaya 2027-ci ilin may ayında yekun vurulacaq. Yarışlarda I, II, III yerləri tutan komandalar medal, pul mükafatı, çempion komanda kubok ilə, liqada fərqlənən 3 tələbə-futbolçu isə “Ən yaxşı qapıçı”, “Ən məhsuldar oyunçu” və “Ən yaxşı oyunçu” nominasiyaları üzrə xüsusi mükafatla təltif olunacaq.

Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növünün təbliği, perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması və tələbələrdən ibarət yığma komandanın formalaşdırılmasından ibarətdir.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

Baş redaktor
Sarvan İbrahimov

Reklam və elanlar: Mob.: (010) 253-30-86; elan@media.edu.az

Ünvan: AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

Bank hesabımız
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

Lisenziya: № 022327 **İndeks:** 1052

Tiraj: 46580 **Sifariş:** 1493

Məsul növbətçi: O.Mustafayev



İnsanın arzularına gedən yolu bəzən kiçik bir maraqdan, təsadüfi görünən bir addımdan başlayır. Zaman keçdikcə həmin maraq həyatının ayrılmaz hissəsinə çevrilir, ona yeni hədəflər qazandırır. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi 18 yaşlı Gülnar Cabbarova üçün də rəqs belə bir sevgiyə çevrilib. Bu gün həm təhsil alan, həm rəqs dərsləri keçən, böyük səhnələrdə çıxış edən gənc qızın uğurları və gələcəklə bağlı arzuları ilə oxucuları yaxından tanış edirik.

Rəqs onun yaradıcılıq dünyasıdır

“Rəqsə həvəsim bacımdan keçib”

Lənkəranda dünyaya gəlib, dörd yaşından sonra Masallıda yaşamağa başlayıb. Hazırda Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində “Mühasibat uçotu” ixtisası üzrə təhsil alır. Məktəb illərində rəsmə maraq göstərib. İncəsənətə olan xüsusi marağı isə onu illərdir məşğul olduğu rəqs sənətinə gətirib.

Gülnarın rəqsə gəlişi 2017-ci ilə təsadüf edir. Kiçik bacısının rəqs dərslərinə getməsi onda da bu sənətə maraq oyadıb. İlk addımlarını atdığı dövrü və müəllimini xoş duyğularla xatırlayır: “Rəqsə həvəsim bacımdan keçib. Rəqs müəllimim Gündüz Babayevin gülərüzlülüyü, səmimiyyəti və rəqsin bütün incəliklərini öyrətməsi bu sənətə sevgimi daha da artırdı”.

Bu gün Gülnar özü də müəlliminin yanında şagirdlərlə işləyir, onlara rəqs öyrədir, müxtəlif tədbirlərə hazırlaşdırır. Hələ özünü peşəkar rəqs müəllimi hesab etməsə də, bu sahədə təcrübə qazanmağa və rəqqaslar yetişdirməyin sirlərini öyrənməyə çalışır.

Səhnədə qazandığı uğurlar

Gülnar Cabbarova bir sıra uğurlara imza atıb. Solo rəqslər üzrə qazandığı birinciliklər onun üçün həm zəhmətinin bəhrəsi, həm də yeni hədəflərə stimul olub. İlk birinciliyini Lənkəranda, ikincisini Bakıda qazanan gənc rəqqasə xüsusilə paytaxtdakı müsabiqəni unutmur. Yeni insanlarla tanışlıq, sənət adamlarının diqqətini cəlb etməsi və aldığı müsbət münasibət həmin uğuru onun üçün daha yaddaqalan edib. Üçüncü birinciliyi isə Rəşid Behbudov adına Mahnı Teatrında qazanıb.

Belə ki, Gülnar Rəşid Behbudov adına Mahnı Teatrında keçirilən “Payız əfsanələri” beynəlxalq incəsənət müsabiqə-festivalında birinci yerə layiq görülüb. O, solo nominasiyası üzrə I yerin və “Ən yaxşı səhnə libası” mükafatının sahibi olub.

Rəqs geyimi Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində tikilib

Gülnarın həmin çıxışı ilə bağlı qürur duyduğu başqa bir məqam da var. Səhnədə geyindiyi libas öz ideyası əsasında hazırlanıb. Gənc rəqqasə geyiminin dizaynını özü düşünüb, onun tikilməsini isə təhsil aldığı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin dərziləri həyata keçiriblər. Nəticədə bu libas “Ən gözəl səhnə libası” adına layiq görülüb. Beləliklə, Gülnarın yaradıcılıq ideyası ilə peşə təhsilinin imkanları bir səhnə uğurunda birləşib.

Bu uğur onun üçün rəqsin yalnız hərəkət və səhnə çıxışından ibarət olmadığını, yaradıcılıq və zövqün də sənətdə mühüm yer tutduğunu göstərir. Elə gələcək arzularından biri də bu istiqamətlə bağlıdır.

Gülnar təhsil aldığı ixtisasın xarakterinə uyğun olduğunu deyir. Təhsilini davam etdirməklə yanaşı, rəqs dərsləri keçir, tədbir və festivallarda iştirak edir. Bütün bunları bir arada həyata keçirmək asan olmasa da, gördüyü işlərdən zövq alır: “Bir çox işi eyni vaxtda görmək bəzən müəyyən çətinliklər yaradır. Amma mən bu çətinliklərin öhdəsindən gəlməyi bacarıram. Çünki sevdiyim işlərlə məşğulam. Və bu, mənə zövq verir”.

Gülnarın gələcək planları bir neçə istiqaməti əhatə edir. Qarşısında həm təhsil, həm sənət, həm də yaradıcılıqla bağlı çoxsaylı hədəflər var. Tanınmış rəqqasə olmaq, yaxşı mühasib kimi yetişmək istəyir. Ən böyük arzularından biri də öz milli geyim brendini yaratmaqdır.

Nilufər HACILI,
Lənkəran-Astara üzrə regional təmsilçi

Etibarsız sayılır

Saatlı şəhər 4 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Əhmədova (Əlcabbarova) Tülpan Əmrah qızına verilmiş A-115433 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Naxçıvan Dövlət Universiteti tərəfindən 2018-ci ildə Həsənova Minurə Fikrət qızına verilmiş C-000564 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 20 nömrəli tam orta məktəb-liseyi 2005-ci ildə bitirmiş Yəhyəzadə Cavidan Rüfət oğluna verilmiş B-120137 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər İ.Hacıyev adına “Tərəqqi” texniki-humanitar liseyin IX sinfini 2023-cü ildə bitirmiş Məhərrəmov Toğrul Ceyhun oğluna verilmiş C-766271 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 61 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Həmzəyev Mirzə Zakir oğluna verilmiş B-012075 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayon Yergüc kənd tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Mirzəyeva Məhrubə Əliağa qızına verilmiş 279541 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Sabirabad Peşə Liseyini 2020-ci ildə bitirmiş Əliyev Mirəli Mətləb oğluna verilmiş E-283553 nömrəli tam orta təhsil haqqında attestat və AA-132114 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Şəki rayon Böyük Dəhnə kənd 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Paşayeva (Hacıbabayeva) Ülviyyə Ayaz qızına verilmiş A-563118 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən 2013-cü ildə Qarayeva Sevinc Qəzənfər qızına verilmiş YB N-017917 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 266 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Rəsul Ömər Mirdamət oğluna verilmiş E-448426 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Ağcabədi şəhər 114 nömrəli Texniki Peşə Məktəbi tərəfindən 1998-ci ildə Məmmədov Cavid Zahid oğluna verilmiş AA-022226 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Astara şəhər 3 nömrəli tam orta məktəbi (indiki Astara şəhər 3 nömrəli lisey) 2014-cü ildə bitirmiş Novruzov Səbuhi Azər oğluna verilmiş A-330538 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Astara rayon Alaşa kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Novruzova Şinayə Salman qızına verilmiş B-038265 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Abşeron rayon qiyabi orta məktəbi (fəaliyyəti dayandırılmış) 2004-cü ildə bitirmiş Gülmətov Yusif Naziroviçə verilmiş B-025746 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Astara rayon Kijəbə qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Davudov Murad Camal oğluna verilmiş A-692453 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Saatlı rayon Genişkənd kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Məmişov Rafael Nadir oğluna verilmiş 523016 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər 7 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2025-ci ildə bitirmiş İsmayılova Firuzə İmran qızına verilmiş F-151062 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Yevlax rayon 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Misirov Ramil Amil oğluna verilmiş A-375249 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Xəzər Universiteti tərəfindən 2025-ci ildə Zalov Orxan Xəqani oğluna verilmiş C-259946 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Lənkəran Tibb Texnikumu tərəfindən 1997-ci ildə Babayeva Ruhiyyə Babali qızına verilmiş AB-II-006686 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Hacettepe Universiteti tərəfindən 2009-cu ildə Kərimov Samir Elçin oğluna verilmiş 09390041 nömrəli bakalavr diplomuna Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş 007350 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən 2025-ci ildə Əlizadə Fəqan Akim oğluna verilmiş C-266187 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 322 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Novruzzadə Elvin Rəhim oğluna verilmiş C-619055 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 189 nömrəli tam orta ümumtəhsil məktəbi 1974-cü ildə bitirmiş Kanayçeva İrina Valentinovnaya verilmiş 713558 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Saray qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Həsənova Aliyə Faiq qızına verilmiş A-159364 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2007-ci ildə verilmiş A-389490 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Zaqatala rayon Aşağı Tala kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Salehova Arzu Abdulla qızına verilmiş B-239944 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 64 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Quliyeva (Quluzadə) Ülviyə Əlizadə qızına verilmiş B-3404 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 238 nömrəli tam orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Məcidov Kamil Mobil oğluna verilmiş F-066680 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən 2021-ci ildə Qəhrəmanov Samir Natiq oğluna verilmiş C-121237 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon Yuxarı Aran qəsəbə tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Hacıyev Elgün Şiraslan oğluna verilmiş A-135233 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon Mil qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Mehtiyev Seymur Ramiz oğluna verilmiş B-157019 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dillər Universiteti tərəfindən 2008-ci ildə Haqverdiyeva Fatma Əli qızına verilmiş B-119868 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Cəlilabad şəhər 2 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Pənahlı Ləman Müşfiq qızına verilmiş A-456919 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Tibb Universiteti tərəfindən 2007-ci ildə Nəsibova Rəqsanə Bayram qızına verilmiş BB-I-006427 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən 2014-cü ildə İbrahimova (Mansurova) Nərmin Samir qızına verilmiş B-270169 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Bərdə şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Rəsulova Günay İlqar qızına verilmiş B-229068 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

17 nömrəli Bakı Peşə Liseyi (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2013-cü ildə Əliyev Orxan Vaqif oğluna verilmiş A-032278 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən 1993-cü ildə Apayev Aydın Teliboviçə verilmiş ЦВ-837501 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Qazax şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Mustafayev Emin Ramin oğluna verilmiş E-629073 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Balakən rayon İtitala kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Hacıyeva Maya Aydın qızına verilmiş 178008 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəmkir şəhər N.Gəncəvi adına (indiki Fərman Salmanov) tam orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Hacıyev Əli Nurəddin oğluna verilmiş C-104909 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Yevlax rayon Ərəş kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Qasımov Mətləb Rayət oğluna verilmiş natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı İslam Universiteti tərəfindən 2017-ci ildə Ağamoğlanov Hilal Əli oğluna verilmiş A-117508 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.